www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 16 noyabr 2018-ci il Cümə № 244 (7133) Qiyməti 60 qəpik

**Xəbər**

**Yasamalda qadın kirayə qaldığı evdə qətlə yetirildi**

yazısı səh.14-də

**Gündəm**

**Moskvaya qarşı "qaz" gedişi - İrəvan Kremli şantaj edir**



Paşinyandan "Qazprom"a ağır ittihamlar - kritik 6 dekabr gözləntisi və erməni nəşrindən SOS

yazısı səh.8-də

**Parlament müzakirə və etirazlara səbəb olan qanunu qəbul etdi**

yazısı səh.4-də

**Hökumət deputatların təkliflərini nəzərə alırmı?**

yazısı səh.6-da

**Trampın media ilə düşmənçiliyinin əsas səbəbi**

yazısı səh.7-də

**Azərbaycan üçün "Rus NATO-su"nun önəmi dəyişir - maraqlı gəlişmə**

yazısı səh.9-da

**Avropa liderlərini ərəb şeyxləri ilə bağlayan tellər**

yazısı səh.7-də

**Bakıda velosipedə maraq var, şərait isə yoxdur...**

yazısı səh.10-da

**Qarabağda böyük sülhü əngəlləyən əsas səbəb - "ikili standart" siyasəti**

yazısı səh.11-də

**Əhalinin qazla təminatı axsayır - "Azəriqaz" isə "hər şey yaxşıdır" deyir**

yazısı səh.12-də

**Nazirlik "tüstülü restoranlar"la mübarizəni sərtləşdirdi**

yazısı səh.10-da

**Rəsmi qurum ekoloqun sərt qış proqnozunu təsdiq etmədi**

yazısı səh.12-də

# ABEL MƏHƏRRƏMOV ERASININ BİABIRÇI SONLUĞU - REKTOR ÖZÜNÜ NECƏ YANDIRDI...

**BDU-nun rektorunun işdən çıxarılmasının olduqca müdhiş səbəblərinin olduğu deyilir:** "Abel Məhərrəmov Madrid şəhərindəki restoranlardan birində içib dava salıb"; "Bakıdan İspaniyaya və geriyə çaxır daşıyıb"; "Səfir olan oğlu isə diplomatik toxunulmazlığından biznes maraqları üçün istifadə edib"...




yazısı səh.3-də

# Yeddi ay boş qalan vəzifənin Eldar Əzizova həvalə edilməsinin səbəbləri

Prezident İlham Əliyev iki böyük şəhərə rəhbərlik etmiş təcrübəli kadrı düz 4 ay sınaq müddətində yoxlamağa üstünlük verdi; BŞİH-in yeni rəhbərini şəhər təsərrüfatında görüləcək çətin işlər gözləyir...

yazısı səh.6-da



*Vəkil Əsabəli Mustafayev:*

**"Talançı məmurların mülklərinin hərraca çıxarılması üçün hüquqi mexanizm mövcuddur"**

yazısı səh.3-də



*Oqtay Qasımov:*

**"Hərəkat liderləri sırasında agentlərin olmadığını deyə bilmərəm"**

yazısı səh.5-də



**Zamirə Hacıyevaya 12 ilədək həbs cəzası verilə bilər**

yazısı səh.2-də

**Noyabrın 3-də Qafqaz Müsəlmanları İdarəsinin sədri şeyxülislam Allahşükür Paşazadə başda olmaqla, geniş tərkibli Azərbaycan nümayəndə heyəti xüsusi reyslə İspaniyanın paytaxtı Madrid şəhərinə yola düşüb. Musavat.com-a verilən məlumata görə, məqsəd bu ölkədə dini tolerantlıq mövzusunda keçiriləcək beynəlxalq konfransda iştirak etmək olub.**

# Abel Məhərrəmov erasının biabırçı sonluğu - rektor özünü necə yandırdı...

## BDU-nun rektorunun işdən çıxarılmasının olduqca müdhiş səbəblərinin olduğu deyilir: "A.Məhərrəmov Madrid şəhərindəki restoranlardan birində içib dava salıb"; "Bakıdan İspaniyaya və geriyə çaxır daşıyıb"; "Səfir olan oğlu diplomatik toxunulmazlığından biznes maraqları üçün istifadə edib"...




Nümayəndə heyətinin tərkibində olan və adının çəkilməsini istəməyən şəxslərdən birinin verdiyi məlumata görə, səfər başlanğıcdan sona qədər "maraqlı macəralar"la zəngin olub.

Əvvəlcə, Airbus-319A tipli təyyarə ilə uçmağa hazırlaşan nümayəndə heyəti öz yerini tutduqdan sonra təyyarə 2 saata qədər havaya qalxa bilməyib. Buna səbəb isə sərnişinlərdən birinin - nümayəndə heyətinin tərkibində yer alan BDU-nun rektoru, akademik Abel Məhərrəmovun 2 tonluq baqajı olub. Səfər iştirakçıları noyabrın 10-da Madriddən qayıdanda da eyni hadisə ilə üzləşməyə məcbur olublar. Yalnız A.Məhərrəmova və onun ölkəmizin İspaniya Krallığındakı səfir işləyən oğlu Anar Məhərrəmova məxsus 2 tona qədər yük boşaldıldıqdan sonra təyyarənin uçuşuna icazə verilib.

Sual oluna bilər ki, bir nəfər bu qədər yüklə niyə səfərə çıxır. Mənbəmizin məlumatına görə, haqqında danışdığımız yük adi yol çemodanları yox, hörmətli akademikin və onun səfir oğlunun şərab biznesinə aid çəlləklər imiş. Sən demə, şərab dolu çəlləklər kontrabanda yolu ilə Azərbaycandan İspaniyaya aparılır və orada şüşələrə doldurularaq qeyri-qanuni şəkildə geri qaytarılır. Sonra isə ispan şərabı adı ilə A.Məhərrəmova məxsus şadlıq evlərində, restoranlarda və digər ticarət nöqtələrində satılır.

Burada bir arayış verək ki, diplomatik xidmətdə olan şəxslərin baqajları yoxlanmadığından və onların çəkisinə məhdudiyyət olmadığından istənilən çəkidə yük apara bilirlər. Üstəlik, diplomatik korpus nümayəndələrinin yükləri gömrük rüsumlarından azaddır. Görünür, ata-oğul Məhərrəmovlar dövlətin verdiyi səlahiyyətlərdən, beynəlxalq konvensiyaların yaratdığı şəraitdən bu cür barbarcasına yararlanırlar. Ölkədən xüsusi çəlləklərdə şərab daşıyırlar. Akademik və səfir tituluna yaraşmayan işlərlə məşğul olurlar. Bununla da təmsil etdikləri dövləti xaricdə əlverişsiz duruma salırlar. Axırda da o çəlləklər öz başlarında dağılır...

Lakin A. Məhərrəmovu "yandıran" səbəb onun diribaş biznesmen olması, hörmətli şeyxin təyyarəsini özünün yükdaşıma nəqliyyat vasitəsi hesab etməsi yox, Madridin "Eurostar Madrid" otelinin restoranında adını çəkmək istəmədiyimiz millət vəkillərindən biri ilə yeyib-içdiyi vaxt saldığı dava-dalaşdır. Əldə etdiyimiz məlumata görə, gətirdiyi şərablardan və cürbəcür ispan içkilərindən qəbul etdikdən sonra hörmətli akademik bəziləri ilə "haqq-hesab çürütmək" fikrinə düşüb. "Haqq-hesab" o qədər səs-küylü və aqressiv olub ki, nəinki restoran və oteldəkilər, hətta ətraf məhəllələrdə yaşayan sakinlər də narahat olublar. Yalnız ispan polisi işə qarışdıqdan sonra dava-dalaş dayanıb və bardakı hörmətli həmvətənlərimiz dağılışıblar.

Bəs A.Məhərrəmovu özündən çıxaran o məşum səbəb nə imiş? Deyilənə görə, Azərbaycanın İspaniyadakı səfiri, hörmətli akademikin oğlu Anar Məhərrəmovla şeyxin qudası Əli Evsen adlı iş adamı arasında olan ixtilaflar ucbatından baş verən bəzi "hörmətsizlik"lər onu özündən çıxarıb. Abel müəllimin fikrincə, Əli Evsen ona və oğluna lazımi diqqət göstərməyib. Hətta Abel müəllim o gecə qeyzlənərək lovğa-lovğa söyləyirmiş: "BDU elə-belə yer deyil. Minlərlə gəncin, yüzlərlə ziyalının toplaşdığı bir müəssisədir. Əgər mən istəsəm onların gücü ilə bir anda ölkədəki sabitliyi poza bilərəm."

Mənbəmizin verdiyi məlumata görə, A.Məhərrəmov hətta şeyxi gecəyarı qaldığı nömrədən çıxararaq qudasına "tərbiyə" verməsi" tələbi ilə restorana gətizdirib.

Səfər iştirakçılarından birinin dediyinə görə, o gecənin səhəri tədbirin keçirildiyi salonda da utandırıcı anlar yaşanıb. Hələ də özünə gələ bilməyən Abel müəllim, çıxış edərkən olduqca yayğın olub, məntiqsiz və rabitəsiz sözlər səsləndirib. Mənbəmizin dediyinə görə, orada olan yerli və xarici jurnalistlər, ötən gecə baş verənlərdən xəbərdar olan konfrans iştirakçıları öz aralarında pıçıldaşaraq, onun hələ də ayılmadığını deyir və rişxəndlə gülürdülər.

Bütün bunlardan sonra yəqin ki, A.Məhərrəmov özünün və oğlunun taleyini həll edib. Daha bundan sonra minlərlə tələbənin oxuduğu və çoxsaylı ziyalının işlədiyi BDU ona etibar edilməyəcək. Atalar demişkən, artıq tamah baş yarar. Abel müəllimin də tamahı özünün və oğlunun başını beləcə yardı.

Dünən bu mövzuda misavat.com yazı dərc etdikdən az sonra ölkə başçısı Abel Məhərrəmovu BDU-nun rektoru vəzifəsindən azad edilməsi haqda sərəncam imzaladı. Bax beləcə, Abel Məhərrəmov da vüsala qovuşdu. 20 ildən çox müddətdə BDU kimi nüfuzlu bir universitetdə rektor olmuş adamın karyerası bu cür biabırçılıqla yekunlaşdı.

Xatırladaq ki, hələ bu ilin may-iyun aylarında A.Məhərrəmovun səfir oğlu haqda yerli mətbuatda yazılar dərc olunub. Həmin yazılarda Anar Məhərrəmovun çaxır alverilə məşğul olduğu, bu məhsulları Azərbaycana diplomatik möhür altında göndərdiyi bildirilirdi.

Həmçinin İspaniya-Azərbaycan Ticarət və Mədəniyyət Assosiasiyasının prezidenti Fərid Mustafayev Azərbaycan hökumətinə səfir Anar Məhərrəmovun Dağlıq Qarabağ məsələsində davranışları, bu mövzuda müzakirələri qadağan etməsindən şikayətləndiyi barədə Prezident Administrasiyasına, Azərbaycan XİN-ə və Milli Məclis rəhbərliyinə şikayət məktubu yazdığı bildirilirdi. Həmin məqalədə o da bildirilirdi ki, Fərid Mustafayevin məktubu parlament və Prezident Administrasiyasında müəyyən şəxslərə çatandan sonra Xarici İşlər Nazirliyinə araşdırma aparmaq tapşırılıb.

Sonda onu da xatırladaq ki, A.Məhərrəmovun oğlu Anar Məhərrəmov 5 aprel 2016-cı ildə səfir təyin olunub. Bu o ərəfə idi ki, hər gün Qarabağ cəbhəsindən şəhid xəbərləri və cənazələri gəlirdi.

Mövzunu davam etdirəcəyik.

**❑ "Yenİ Müsavat"ın İnformasİya şöbəsİ.**

# Talançı məmurların mülklərinin hərraca çıxarılması mümkündürmü?

## **Tanınmış vəkil Əsabəli Mustafayev:** "Deputatın təklifinin reallaşması üçün hüquqi mexanizm mövcuddur"

**2019-cu ilin dövlət büdcəsinin Milli Məclisdə müzakirəsi zamanı deputat Fəzail Ağamalı şəhid ailələrinə ödənilməli olan 264 milyon manatın mənbəyini göstərib. O bildirib ki, Azərbaycanın ərazi bütövlüyü uğrunda 24 min nəfər qəhrəman vətəndaşlarımız şəhid olub.**



Həmin şəhidlərin hamısının ailəsinə müavinət ödəmək üçün lazım olan 264 milyon manatı dövlət büdcəsini talamış keçmiş məmurların mülklərini hərraca çıxarmaqla əldə etmək lazımdır: "24 min nəfər şəhid olub. Mən bu döyüşlərdə iştirak edənlərdən biriyəm. Bunlar niyə yaddan çıxmalıdır? Niyə məsələn şəhid olan polis işçiləri yaddan çıxmalıdır? Əgər bunların hər birinə, 24 min nəfər şəhidin ailəsinə müavinət ayrılsa, bu, 264 milyon manat edər. Dövlət büdcəsinin müəyyən problemləri var, mən bunu başa düşürəm. Amma mən bu vəsaitlərin ödənilməsi mənbəyini deyirəm: Cahangir Hacıyevin Londondakı mülkləri satılsın, gətirilsin dövlət büdcəsinə! Fazil Məmmədovun, Rüfət Aslanlının mülkləri, obyektləri, maşın kolleksiyaları çıxarılsın hərraca, satılsın, vətən uğrunda döyüşən, şəhid olanların ailələrinə verilsin! O da xalqın puludur. Bu istiqamətdə ciddi addımlar atmağa ehtiyac var".

Vitse-spiker Valeh Ələsgərov deputatın çıxışında səsləndirdiyi fikirlərə ironik tərzdə cavab verib: "Burada hamı deyir ki, uşaq puluna və digər məsələlərə pul ayrılsın. Mən də istəyirəm ki, bu, olsun. Amma mənbə haradadır, mənbəni göstərin, hesablayın, hökumətə verin və bu məbləğ də büdcəyə daxil olsun".

Bu zaman zaldan Fəzail Ağamalının etirazı eşidilib. O bildirib ki, az öncəki çıxışında adını çəkdiyi sabiq məmurların əmlaklarını hərraca çıxarmaqla, əldə olunan pulla mənbə yaratmaq mümkündür.

Bu dəfə yenidən müdaxilə edən Valeh Ələsgərov "Məmurların mülklərinin satılmasının hüquqi yolunu bilirsinizsə, o zaman deyin. Yazın hökumətə, qoy etsinlər" deyə, bildirib.

Bəs, deputat Fəzail Ağamalının təklifində nəzərdə tutulan məsələnin hüquqi mexanizmi varmı?

Tanınmış vəkil Əsabəli Mustafayev "Yeni Müsavat"a bildirdi ki, hüquqi mexanizm mövcuddur. Birincisi, məhkəmə hökmü ilə göstərilməlidir ki, həmin məmurların əmlakı müsadirə olunsun. Müsadirə barədə məhkəmə hökmü olandan sonra qanun yol verir ki, həmin əmlaklar satılmaq üçün hərraca çıxarılsın: "Hərracda satıldıqdan sonra əldə edilən vəsait dövlət büdcəsinə yönləndirilir. Dövlət büdcəsindən isə istər şəhid ailələrinin, istər əlillərin problemlərinin həlli üçün, istərsə də başqa qanuni istiqamətlərə həmin vəsaitlər ayrılır. Yəni Fəzail Ağamalının qaldırdığı məsələnin qanuni bir həll yolu budur.

Bəzən hökmdə dövlətə vurulmuş zərərin tutulması göstərilir. İstənilən halda şəxs əgər məhkum olunubsa və barəsində dövlətə vurduğu maddi zərərlərin geri qaytarılması qərarı məhkəmə tərəfindən çıxarılıbsa, o zərər mütləq həmin adamdan tutulmalıdır".

Hüquqşünas qeyd etdi ki, bəzən dövlət əmlakını, vəsaitlərini talamış məmurların öz adına demək olar ki, rəsmi heç bir əmlak olmur. Ona görə də məhkəmə hökmündə əmlakın müsadirə olunması göstərilmir, sadəcə göstərilir ki, dövlətə vurduğu maddi zərərə görə məsələn, 100 milyon manat həmin şəxsdən tutulsun. Bu zaman isə həmin vəsaiti ondan necə tutmaq məsələsi ortaya çıxır. Bunun da qanuni yolları var: "Məsələn, tutaq ki, Cahangir Hacıyevdən dövlətə vurduğu zərərin ödənilməsi tələbi məhkəmə hökmündə əksini tapır, lakin Cahangir Hacıyevin adına mülklər yoxdursa, o halda xanımından o vəsaitlər tutula bilər. Çünki xanımın adına bankda olan pullar, mülkiyyət həyat yoldaşı ilə birgə mülkiyyəti sayılır. Ona görə ki, o pullar və mülklər Cahangir Hacıyevlə birlikdə nikah dövründə əldə edilib. Beləliklə, bunu əsas göstərib dövlət tələb eləyə bilər ki, keçmiş məmurun özünün adına əmlak yoxdursa, ailəsinin adına olan mülkiyyətin müsadirə olunması qərarı məhkəmə tərəfindən verilsin. Deputat Fəzail Ağamalı boş-boşuna danışmır. Əvvəla, şəhid ailələrinə ürəyi yanır. İkincisi, dövlətdən oğurlanan vəsaitlərin geri qaytarılmasının hüquqi mexanizminin olduğunu bilir. Həmin keçmiş məmurların dövlətdən milyardlar oğurladığını deputatlar da yaxşı bilirlər. Ola bilsin ki, o məmurların oğurladıqları öz adlarına deyil, başqalarının adınadır. İstintaq orqanının borcudur ki, araşdırıb dövlətdən oğurlanan vəsaitlərin, o vəsaitlərdən əldə olunan mülkiyyətin kimlərin adına rəsmiləşdirildiyini, harada olduğunu tapsın. Bunu müəyyən etdikdən sonra həmin mülkiyyətlərin və vəsaitlərin dövlətə geri qaytarılmasının hüquqi mexanizmi mövcuddur. Yəni bütün prosedurlar hüquqi qaydada aparılmalıdır. İstəsələr bunu reallaşdıra bilərlər. İstintaq orqanı bu məsələdə maraqlı və qətiyyətli olmalıdır. Əslində deputat çox vacib məsələni qaldırıb".

**❑ Etİbar SEYİDAĞA, "Yenİ Müsavat"**

YENİ MÜSAVAT
N 244 (7133) 16 noyabr 2018

# Müzakirə və etirazlara səbəb olan qanun qəbul edildi

## Hökumətə bir həftə vaxt verildi; şəhid ailələrinin məsələsi növbəti dəfə plenar iclasda müzakirə olundu: "Xahiş edirəm, cənab nazirə deyin, bir-bir bu insanları qəbul eləsin, birdəfəlik desin ki, bu insanlara qanpulu düşür, ya düşmür"



**Noyabrın 15-də spiker Oqtay Əsədovun sədrliyi ilə Milli Məclisin plenar iclası keçirildi. Gündəliyin bir hissəsi 2019-cu il dövlət büdcəsi ilə bağlı məsələlərdən ibarət idi.**

"Azərbaycan Respublikası Milli Məclisinin xərclər smetası haqqında" qanun layihəsi barədə Milli Məclisin İşlər İdarəsinin müdiri Firudin Hacıyev məlumat verdi. Bildirdi ki, Milli Məclisin və onun Aparatının xərcləri üçün 2019-ci ilin dövlət büdcəsində 27 milyon 69 min 600 manat vəsait nəzərdə tutulub. Bu vəsaitin isə 67 faizini əmək haqqı fondu və əmək haqqı ilə bağlı ayırmalar təşkil edir. F.Hacıyev maliyyə naziri Samir Şərifova müraciətlə 2019-cu il xərclər smetasında vəsaitin çatışmazlığını nəzərə alaraq əlavə vəsait ayrılmasını xahiş etdi.

Qeyd edək ki, iclas başlamazdan öncə şəhid ailələrinin bir qrupu Milli Məclisin binası qarşısına toplaşmışdı. Onlar deputatlara yaxınlaşaraq prezident fərmanı ilə ayrılan sığorta haqqını ala bilmədiklərindən şikayətlənirdilər.

**Deputat Qüdrət Həsənquliyev** şəhid ailələri ilə görüşərək onları dinləyib və səbrli olmağa çağırdı. Bildirdi ki, onların məsələsini diqqətdə saxlayır və müsbət həll olunacağına ümid edir. Elə müzakirələr zamanı da bir sıra deputatlar şəhid ailələrinin məsələsini qaldırdılar və hökumətə səsləndilər.

**Deputat Vahid Əhmədov** bu mövzuya diqqət çəkdi: "Oqtay müəllim, şəhid ailələri yenə Milli Məclisin qarşısına yığışıb. Onlar deputatların qarşısını kəsib xahiş edirlər ki, məsələləri həll olunsun. Xahiş edirəm, cənab nazirə deyin, bir-bir bu insanları qəbul eləsin, birdəfəlik desin ki, bu insanlara qanpulu düşür, ya düşmür. Bəlkə nazirin vaxtı yoxdur. Lazımdırsa, biz burda bir komissiya yaradaq, bununla məşğul olaq".

**Deputat Qənirə Paşayeva** da şəhid ailələrini narahat edən məsələyə sədarətin və hökumət üzvlərinin diqqətini cəlb etməyə çağırdı. Xanım deputat sədrə müraciətlə bildirdi: "Hörmətli sədr, təqribən 40 dəqiqədir şəhid ailələri Milli Məclisin binası qarşısında toplaşıblar və xahiş edirlər ki, onların problemləri həll olunsun. Onlar cənab prezidentdən çox razılıq edirlər. Lakin bu gün onların istədikləri budur: biz də bu vəsaiti almaq istəyirik. Bəziləri deyir almışıq, amma çox cüzi vəsait idi, amma bu gün bu vəsaitə çox böyük ehtiyacları var".

**Q.Paşayeva şəhid ailələrinin parlament qarşısında olmasından bəzi xarici qüvvələrin istifadə edə biləcəyindən də bəhs etdi:** "Orda bəzi çəkilişlər də var idi, onların kimliyi də bəlli deyildi. Bəzi xarici güclər var ki, bəlkə də bu məsələdən istifadə etmək istəyir. Odur ki, bu məsələyə diqqətin artırılmasını xahiş edirəm. Cənab prezident belə bir gözəl jest edib, şəhid ailələrinə qayğı göstərib. Onlar xahiş edirlər ki, hökumət üzvlərinə təkrar müraciət edək və hökumət bu məsələni müsbət həll etsin".

**Spiker Oqtay Əsədov** bu məsələ ilə bağlı nazirlə danışdığını bildirdi və məsələnin nəzarətdə olduğunu dedi.

**Deputat Qüdrət Həsənquliyev** deputatların və parlament işçilərinin maaşının artırılması və onlar üçün mənzil tikintisinin bərpa olunması təklifi ilə çıxış etdi. O, həmçinin deputatlar üçün mənzil tikintisinin yenidən bərpa olunmasını zəruri saydı: "Bir zamanlar deputatlar üçün mənzillər tikilirdi və mən özüm də 2003-cü ildə mənzillə təmin olunmuşam. İndi də mərhum prezidentimiz Heydər Əliyevi rəhmətlə anıram. Amma bir müddətdir ki, mənzil tikintisi dayandırılıb. Artıq dövlətin maliyyə imkanları yenidən deputatlar üçün mənzil tikintisinə imkan yaradır. Çünki deputat aldığı maaşla ev tikə bilməz. O baxımdan da mənzillərin tikintisinin yenidən bərpa olunması yaxşı olardı".

Q.Həsənquliyev bəzi media mənsublarının onun ötən iclaslarda səsləndirdiyi fikirlərini təhrif etdiyini söylədi. O bildirdi ki, onun fikirləri təhrif olunduqdan sonra bəzi ünsürlər ona qarşı hücuma keçib. Deputat onun fikirlərini təhrif etdiyi üçün bəzi parlament müxbirlərinin qeydiyyatının ləğvini istədi. Q.Həsənquliyev qeyd etdi ki, ötən dəfə iclasların birində Milli Məclisin işçilərinin əmək haqqının 3 faiz həcmində artırılmasını deyib: "Buradakı bəzi jurnalistlər isə elə təqdim etdilər ki, guya mən deputatların maaş davasını edirəm. Əslində maaş artırılmalıdır. Amma hesab edirəm ki, bu məsələ başqa tərəfə yozulmamalı idi. Bizi mediada bəzi reket jurnalistlər biabır edirlər. Demədiyimiz şeyləri tamamilə təhrif edirlər. Mən bu barədə parlamentin mətbuat xidmətinin rəhbəri Akif Təvəkküloğlu ilə danışmışam və onlar barəsində müəyyən ölçülər götürüb akkreditasiyalarının ləğv edilməsini istəmişəm".

"Azərbaycan Respublikası Milli Məclisi deputatının status haqqında" qanun layihəsi müzakirə olunarkən **deputat Çingiz Qənizadə** bəzi həmkarlarını qınadı: "Kimsə burada Milli Məclisin işçisinə, yaxud fotoqrafa arxayın olub gedib öz şəxsi işi ilə məşğul olmaq istəyirsə, birdəfəlik gedib şəxsi işi ilə məşğul olmalıdır. Üstəlik, biz özümüzə, öz statusumuza hörmət əlaməti olaraq bu qanunu müdafiə etməliyik. Kim istəmirsə, getsin, özünün başqa sahədəki fəaliyyətləri ilə məşğul olsun və biz onlara uğurlar arzulayırıq". Deputat günün ikinci yarısında iclaslara qatılmayanların cəzalandırılmasını nəzərdə tutan məqamlara münasibət bildirdi: "Burada parlamentin iclasında iştirak etməməkdən söhbət gedir. Kifayət qədər imkan verilib. Üzrsüz səbəbdən ardıcıl 4 dəfə və ya bir ayda 6 dəfə iştirak etməmək laqeydlikdir. Biz ən azı burdan əməkhaqqı alırıq və bu işə normal gəlib-getməliyik. Kim bunu istəmirsə, getsin öz işinə".

**Ç.Qənizadə daha sonra maraqlı fikirlər söylədi:** "Saat 12-də qeydiyyatdan çıxıb, saat 4-də gedib Şəmkirdə, ya Gəncədə yeyib-içən millət vəkilləri bilməlidir ki, yox, saat 4-də yenə bura qayıtmalıdır və burada səsvermədən keçməlidir. Ona görə də burda düzəlişlərə heç bir ehtiyac görmürəm. Özü də çox maraqlıdır ki, intizamlı deputatlar daha çox bundan narahat olurlar. Hansılar ki, həmişə burda olurlar, səsvermədə iştirak edirlər".

Deputat dedi ki, bu qanunda hər hansı faciə axtarmağa dəyməz: "Ona görə də mən qanun layihələrini dəstəkləyirəm. Bu, bizim özümüzün də məsuliyyətimizi artıracaq və Milli Məclisə hörmət gətirəcək".

Qeyd edək ki, Milli Məclis 2019-cu il büdcə zərfinin müzakirəsini ilk oxunuşda başa çatdırdı. **Spiker Oqtay Əsədov** bildirdi ki, ikinci oxunuş noyabrın 23-də keçiriləcək. "Noyabrın 23-dək büdcə sənədi ilə bağlı hökumətə vaxt veririk. Büdcə ilə bağlı növbəti iclasımız noyabrın 23-də, daha sonra isə noyabrın 30-da keçiriləcək"-spiker bildirdi.

**Deputat Tahir Kərimli** isə dedi ki, parlamentin televiziyası olmalıdır: "Belə olan halda, burada baş verənlər daha dolğun şəkildə cəmiyyətə çatdırılar. Bir müddət öncə himnlə bağlı çıxış etdim. Burada çıxış edən zaman deputat statusuma uyğun olaraq bütün məsələlər barədə fikirlərimi bildirməyə səlahiyyətli şəxs kimi deyil, sanki öz müdafiə hüququmu həyata keçirən müttəhim kimi danışıram. Hamı mənə baxır və deyir ki, bunun danışmağa üzü də var. Himnlə bağlı çıxışımı elə vəziyyətə qoydular ki..."

**T.Kərimli qeyd etdi ki, çıxışından sonra saytlarda tənqid və təhdid olunub:** "Sabah üçüncü qüvvə bundan istifadə edib mənə qarşı hər hansı tədbir görəndə bilmirəm kimlərinsə ürəyi sızlayacaq, ya yox? Bu il deputatı olduğum seçki dairəsində 17 kənddə görüş keçirmişəm. İndi mən Ağsu rayonunda camaatın arasına necə çıxım? Demədiyim sözləri adıma yazdılar, nə günə qoydular... Milli Məclisin televiziyası olarsa, bu hallar baş verməz".

Bundan sonra deputatlar uzun müddətdir müzakirələrə və etirazlara səbəb olan sənədi - "Milli Məclisin deputatının etik davranış qaydaları haqqında" qanun layihəsini müzakirəyə başladılar.

Mətbuat Şurasının sədri, **deputat Əflatun Amaşov** dedi ki, qanun layihəsinin 10-cu maddəsinə edilən dəyişikliklərə görə, deputat vəzifəsinin icrası ilə əlaqədar ümumi məbləği 55 manatdan yüksək olan hədiyyə qəbul edə bilməz: "Mən belə qənaətdəyəm ki, bu məbləğ kifayət qədər azdır. Çünki başqa ölkələrdə bu rəqəm daha böyükdür. Biz gərək "Korrupsiya haqqında" qanunda bu rəqəmi dəyişək, məhz orada həmin rəqəmin artırılması ilə bağlı təklif irəli sürək. Belə olsa, problem öz həllini tapacaq". Ə.Amaşov bildirdi ki, maraqların toqquşmasının qarşısının alınması məsələsi çox vacibdir: "Heç bir deputat səlahiyyətlərinin icrası çərçivəsində statusundan öz maraqları üçün istifadə etməməlidir. Xidməti vəzifəsinin icrası ilə maraqları arasında ziddiyyət yarandıqda maraqlarından imtina etməlidir. Burada deyilənlər başqa ölkələrdə çoxdan, daha sərt şəkildə qəbul olunub. Böyük Britaniyada elə ola bilər ki, deputat parlamentin yeməkxanasında xərclədiyi pulun hesabatını verməlidir. Almaniyada deputat cinayətdə ittiham edilirsə, o, iclas zalında həbs olunur. Elə ölkələr var ki, deputat seçiciləri ilə görüşməsə, onlarla kobud davransa, ictimai yerdə özünü qeyri-etik aparsa, hətta parlamentdə çıxış etsə, onu çox ağır cəza gözləyir".

**Ə.Amaşov deputatların gəlir deklorasiyası haqqında qanunun qəbul edilməsini də təklif etdi:** "Hesab edirəm ki, qanun layihəsini hazırlayarkən Əli Hüseynlinin rəhbərlik etdiyi Hüquq siyasəti və dövlət quruculuğu komitəsi beynəlxalq təcrübəni öyrənib. Beynəlxalq təcrübədə gəlir deklorasiyası əsas şərtlərdən biri kimi göstərilib. Gəlir deklorasiyasının tətbiqini bu dəfə də olmasa, gələn dəfə gündəmə gətirək və qəbul edək. Bunun üçün qanunvericilik bazamız da mövcuddur".

**Müzakirələrdən sonra deputatların etik davranış qaydaları haqqında qanun ikinci oxunuşda qəbul edildi.**

"Azərbaycan Respublikası Milli Məclisi deputatının statusu haqqında" qanuna dəyişikliyin müzakirəsi zamanı parlamentin İctimai birliklər və dini qurumlar komitəsinin sədri, deputat Siyavuş Novruzov plenar iclasların ikinci hissəsində iştirak etməyən deputatlara irad bildirdi. Dedi ki, Milli Məclisin hörməti onun nizam və intizamı ilə bağlıdır: "Milli Məclisdə müzakirələr günün birinci və ikinci hissəsində aparılır. Məgər günün ikinci yarısında qəbul olunan qanunun çəkisi aşağıdır, yoxsa hüquqi dərəcəsi azdır? Bunların hər biri eynidir. Kimsə harasa iclasa gedirsə, yazılı və şifahi şəkildə parlament sədrinə müraciət edir və xahişi nəzərə alınır".

**Qanun layihəsinin müzakirələrində deputatların yalnız Azərbaycan dilindən istifadə etməsi məsələsinə toxunan S.Novruzov dedi ki, dil məsələsi Milli Məclisin Daxili Nizamnaməsində göstərilib:** "Dövlət dili Azərbaycan dilidir və iclaslar da bu dildə getməlidir. Lakin digər xalqların nümayəndələri də başqa dildə danışa bilər. Sabah biz Dağlıq Qarabağı azad etdik, ermənilərlə bərabər yaşamalı olduq və onların 8-i gəlib oturdu parlamentdə, onlar hansı dildə danışmalıdır? Seçilib gəlib burada iştirak edirsə, o zaman ona da hüquq verilməlidir ki, yaşadığı ölkənin vətəndaşı olmaqla yanaşı, öz dilində danışsın. Azərbaycanlı olub bu dili bilməyənlər məcbur olub danışmalıdırlar. Qalan insanları buna məcbur etmək olmaz".

**S.Novruzov deputatların hədiyyə almaq məsələsinə gəlincə, söylədi ki, bu, ABŞ-da və digər ölkələrdə də mövcuddur**: "Burada söhbət hansısa nümayəndənin verdiyi hədiyyədən gedir. ABŞ-da deputat 300 dollardan aşağı verilən hədiyyəni evinə apara bilər. Əgər 300 dollardan yuxarıdırsa, o parlamentdə qalmalıdır. Biz bunu müəyyənləşdirəndə o zaman manatla avro eyni idi. Həmin dövrdə 50 manat 70 avro idi. Amma bu gün 35 avrodur. Daxili səbəblərimizdən asılı olmayaraq, bu 1 avro da ola bilər. O baxımdan qanuna düzəliş edilməlidir".

**Spiker Oqtay Əsədov** isə deputatın dillə bağlı fikirlərini qəbul etmədi: "Hər kəs Azərbaycan dilini bilməyə borcludur. Kim burada deputatdırsa, zəhmət çəkib Azərbaycan dilində danışsın. Deyirsiniz ki, nə vaxtsa burada ermənilər təmsil oluna bilər. Mən burada erməni, ya da başqa dildə tərcüməçi əyləşdirməli deyiləm ki? Azərbaycanda olan ermənilərin hamısı Azərbaycan dilini yaxşı bilir. Kim Azərbaycan dilini bilmirsə, burada oturmamalıdır".

**O.Əsədov deputatların intizamı məsələsinə də toxundu**: "Buradan hər kəsi yaxşı görürəm. Plenar iclas keçirilən günün birinci yarısında burada olanların 30 faizi ikinci hissədə iştirak etmirlər. Bunu elan etməli deyiləm axı". Spiker qeyd etdi ki, hər bir deputat iclasda iştirak etməlidir: "Elə deputatlar var ki, günün ikinci yarısında iclasda iştirak etmir. Xəbərdarlıq edirsən, nəticəsi olmur... Buna son qoymaq üçün günün ikinci yarısında da qeydiyyat aparılmasını təklif edirsinizsə, edərik".

❑ **Elşad PAŞASOY, "Yeni Müsavat"**

# Yeddi ay boş qalan vəzifənin Eldar Əzizova həvalə edilməsinin səbəbləri

## Prezident İlham Əliyev iki böyük şəhərə rəhbərlik etmiş təcrübəli kadrı düz 4 ay sınaq müddətində yoxlamağa üstünlük verdi; BŞİH-nin yeni rəhbərini şəhər təsərrüfatında görüləcək çətin işlər gözləyir...

**Prezident İlham Əliyev noyabrın 15-də Eldar Əzizovun Bakı Şəhər İcra Hakimiyyətinin (BŞİH) başçısı təyin edilməsi haqqında sərəncam imzalayıb.**

Yada salaq ki, aprelin 21-də prezident İlham Əliyevin Nazirlər Kabinetinin yeni tərkibi haqqında məlum sərəncamından sonra Bakı şəhər icra hakimiyyətinin başçısı Hacıbala Abutalıbov tutduğu vəzifədən azad olundu. Digər sərəncamla o, baş nazirin müavini təyin edildi. Abutalıbovun gedişindən sonra BŞİH rəhbərliyində yalnız bir müavin qalmışdı - Fidumə Hüseynova. BŞİH-də yeganə rəhbər şəxs olan F.Hüseynova 2005-ci ildən BŞİH başçısının müavini vəzifəsində çalışırdı. Çünki Abutalıbovun müavini Rauf Pənahov 2017-ci ilin iyunda vəfat etsə də, onun yerinə də təyinat olmamışdı.

Bu səbəbdən də Abutalıbovun yerinə kimin təyin ediləcəyi mediada ən çox dartışılan mövzuya çevrilmişdi. Bakı şəhər icra hakimiyyətinin başçısı vəzifəsi strateji post olduğundan ora kimin təyin olunacağını əvvəlcədən proqnozlaşdırmaq da çətin idi. Üstəlik, Abutalıbovun BŞİH başçısı vəzifəsində azad edilməsi paytaxt təsərrüfatı sistemində böyük dəyişikliyə hazırlıq kimi izah edilirdi. 2001-ci ilin yanvar ayından BŞİH-nin başçısı olan Abutalıbov son illər ciddi tənqid hədəfinə çevrilmişdi və hətta dövlət qəzetləri belə şəhər təsərrüfatındakı problemlərdən yazaraq merin fəaliyyətini tənqid edirdilər.

Bakının simasını eybəcərləşdirən qanunsuz tikililərdən isə narazılıq daha çox idi. Dünya turizminin əsas mərkəzlərindən birinə çevrilməyə iddialı olan Bakıya yaraşmayan tikililərin artması prezident İlham Əliyevin ən çox narazı qaldığı sahələrdən biri idi. Təsadüfi deyil ki, Nazirlər Kabinetinin oktyabrda keçirilən son müşavirəsində dövlət başçısı bu məsələ barədə kifayət qədər sərt mövqe ortaya qoydu. Sitata diqqət edək: "Bakı şəhərində və digər şəhərlərdə qanunsuz tikililərə son qoyulmalıdır və son qoyulur. Müvafiq sərəncam imzalanıb, Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin icazəsi olmadan bir dənə də bina tikilə bilməz. Əvvəlki dövrlərdə təqsiri bələdiyyələr rayon icra hakimiyyətlərinin, rayon icra hakimiyyətləri Bakı Şəhər İcra Hakimiyyətinin, Bakı Şəhər İcra Hakimiyyəti bələdiyyələrin, yəni, bir-birinin üstünə atırdılar. Amma əslində hamısı əlbir idilər. Çünki qanunsuz tikililərdən böyük qazanc əldə edirdilər. Buna son qoyulub, artıq sərəncam imzalanıb. Yəni, bu qaydanı pozan cinayət məsuliyyətinə cəlb ediləcək və qanunsuz tikilən binalar dərhal söküləcək".

Bu sitatdan da göründüyü kimi, dövlət başçısı qanunsuz tikililərdən böyük pullar qazananlar sırasında BŞİH-nin də adını çəkib. "Bakı dünyanın ən gözəl şəhərlərindən biridir və kiminsə tamahı naminə biz şəhərimizi eybəcər hala sala bilmərik. Şəhərsalma qaydaları var, mərtəbələrin yerə görə hündürlüyü var. Hava axınının müvafiq qaydaları var. Bizdə isə bu, pozulurdu. Elə bil ki, böyük bir sədd tikirdilər. Havanın keçməsi üçün heç bir imkan qalmırdı, həyətlərdə ağacları qırıb binalar tikirdilər. Yerli orqanlar buna həm göz yumurdular, həm də yəqin ki, əlbir idilər. İndi buna son qoyulub" - deyərək, həm də Bakının yeni merindən tələblərini sıralamışdı.



Qeyd edək ki, bu müşavirədən bir müddət əvvəl-konkret olaraq iyulun 16-da Səbayel Rayon İcra Hakimiyyətinin başçısı Eldar Əzizov BŞİH başçısının birinci müavini təyin edilmişdi və o, şəhər merinin səlahiyyətlərini icra edirdi. E.Əzizov şəhər təsərrüfatına yaxşı bələd olan azsaylı kadrlardan biri hesab olunur. O, 1987-ci illərdə Bakı şəhər komitəsinin birinci katibi vəzifəsində çalışıb.

1999-cu ildən BŞİH-də Xarici əlaqələr və investisiya proqramları departamenti sədrinin birinci müavini, 2000-ci ilin mart ayından BŞİH başçısının müavini vəzifələrində işləyib. 2000-ci ilin iyun ayından Bakı şəhər Nizami rayon İcra Hakimiyyətinin, 2003-2011-ci illərdə Gəncə şəhər İcra Hakimiyyətinin, 2011-2015-ci illərdə Sumqayıt şəhər İcra Hakimiyyətinin başçısı olub. 2015-ci ilin sentyabr ayından isə Bakının mərkəzi rayonlarından biri olan Səbayel rayon İcra Hakimiyyətinin başçısı işləyib.

**Keçdiyi yol və bu illərdə şəhər təsərrüfatının idarəedilməsində topladığı təcrübə, Bakıda qanunsuz tikililərin dayandırılması istiqamətində fəaliyyəti onun tezliklə meriyaya tam səlahiyyətli rəhbər olmaq şansını artırırdı. Amma belə görünür ki, hətta belə təcrübəli kadrı da prezident İlham Əliyev düz 4 ay sınaq müddətində yoxlamağa üstünlük verdi. E.Əzizovun bundan sonrakı işi də prezidentin xüsusi diqqətində olacaq. Bakının yeni başçısını ciddi sınaq və görüləcək xeyli işlər gözləyir...**

**❑ ORXAN,**
**"Yeni Müsavat"**

# Hökumət deputatların təkliflərini nəzərə alırmı?

## Fəzail Ağamalı: "Büdcəylə bağlı çoxlu sayda təkliflər irəli sürürük..."

**Bu günlərdə Milli Məclisdə gələn ilin dövlət büdcəsinin birinci oxunuşda müzakirəsi başa çatıb. Komitə və plenar iclaslarda çıxış edən deputatlar bir sıra təklif səsləndiriblər. Növbəti oxunuşa qədər bu təkliflərin hökumət tərəfindəm dəyərləndirilməsi aparılacaq və nəticələr deputatlara açıqlanacaq.**



Qeyd edək ki, son illərdə büdcə müzakirələrində parlament üzvlərinin səsləndirdikləri təkliflərlə bağlı hökumət nümayəndələri tərəfindən məlumat xarakterli hesabatın verilməsi təcrübəsi yaranıb. Məsələn, ötən ilin noyabrında keçirilən büdcə müzakirələrindən sonra maliyyə naziri Samir Şərifovun verdiyi məlumatdan aydın oldu ki, deputatların bəzi təklifləri hökumət tərəfindən qəbul edilib. Məsələn, 2018-ci il üçün Azərbaycanda ehtiyac meyarının həddi 14 manat, yəni 12 faiz artırılmaqla 130 manata çatdırılıb.

Nazir deyib ki, ölkə prezidenti tərəfindən Milli Məclisə təqdim olunan 2018-ci ilin büdcə zərfinin parlamentdəki müzakirəsi zamanı səslənən təkliflər barədə prezidentə məruzə olunub. Nəticədə bir sıra məsələlərlə bağlı əlavə vəsaitlərin ayrılması barədə qərar verilib. Belə ki, eşitmə qüsuru ilə yeni doğulmuş və ürək qüsuru ilə doğulmuş uşaqların müalicəsi üçün əlavə 4 milyon vəsait büdcə xərclərinə əlavə olunub. Növbəti ildən həmin xəstələrin müalicəsinə başlanacaq. S.Şərifov dedi ki, siyasi partiyalar üçün əlavə 500 min manat ayrılmaqla ümumi vəsait 3,1 milyon manata, QHT-lərə əlavə 600 min manat ayrılmaqla ümumi vəsaitin 5,6 milyon manata çatdırılması nəzərdə tutulur. Milli Məclisə isə 1 milyon 200 min manat əlavə vəsaitin ayrılması nəzərdə tutulub. Həmçinin təhsil sahəsinə ayrılan vəsait də artırılıb. Ümumilikdə 2018-ci ilin büdcə xərcləri 141,3 milyon manat artırılıb. S.Şərifov onu da deyib ki, səslənən digər təklif və təşəbbüslər də hökumətin diqqətində olacaq.

Onu da bildirək ki, bu il də büdcə müzakirələri zamanı deputatlar tərəfindən maraqlı təkliflər səsləndirilib. Onlardan cəmiyyətdə ciddi rezonans doğuran birinin müəllifi, **deputat Fəzail Ağamalı** "Yeni Müsavat"a bildirib ki, büdcə zərfinin komitələrdə geniş müzakirəsi keçirilir: "Bu müzakirələrdə maliyyə naziri təqdimat edir, Vergilər, iqtisadiyyat nazirliklərinin, Dövlət Gömrük Komitəsinin, digər əlaqədar dövlət qurumlarının təmsilçiləri iştirak edirlər. Daha sonra büdcə plenar iclasın müzakirəsinə çıxarılır. Bu müzakirələr zamanı parlamentarilər tərəfindən çoxsaylı məsələlər qaldırılır, təkliflər verilir. Bu il də elə oldu, artıq biz büdcə sənədini birinci oxunuşda qəbul etmişik. Növbəti oxunuş zamanı maliyyə naziri Samir Şərifovun timsalında hökumət məlumat verəcək ki, hansı təkliflər qəbul edilib, hansılar müzakirə olunur, hansıları qəbul etmək mümkün olmayıb".

**Deputat bildirdi ki, özü büdcə müzakirələrində sabiq məmurların - Rüfət Aslanlı, Cahangir Hacıyev və Fazil Məmmədovun əmlakı hərraca çıxarılıb satılsın və sığorta haqqı kimi şəhidlərin ailələrinə verilsin:** "Hökumət bizim mümkün olan bütün təkliflərimizi qəbul edirlər. Büdcə ölçüsüz deyil, onun da müəyyən həddi var. Hökumət ehtiyat mənbələr hesabına bizim irəli sürdüyümüz təkliflərin bir çoxunu qəbul edir. Mən yalnız 1992-ci ildən sonra şəhid olan hərbi qulluqçular deyil, bütün şəhidlər üçün sığorta haqqının ödənilməsini zəruri hesab edirəm. Cənab prezident böyük humanist bir qərar qəbul edib. O qərar bütün şəhidlərə şamil edilməlidir. Niyə 1992-ci ildən hərbi qulluğa başlayanlar üçün verilir, amma ona qədər könüllü şəkildə silah tapıb döyüşən, qəhrəmanlıq göstərib həlak olan digər şəhidlər üçün verilmir? Mən konkret mənbə də göstərdim ki, bunun üçün pulu haradan almaq olar. O məmurlar dövlətin pulunu talayıb özlərinə cah-calal qurublar. İndi də o var-dövlətin hesabına lüks həyat yaşayırlar. Niyə belə olmalıdır ki? Bir daha deyirəm ki, belə məmurlarda milyardlarla manat pul var. Əllərindən alınsın, əmlakları hərraca çıxarılıb satılsın, əldə olunan pullar həm şəhidlərin ailələrinə verilsin, həm də digər ölkə üçün zəruri olan sahələrə ayrılsın. Cəmi 24 min şəhid var, onların hamısı üçün sığorta haqqı ödənməsi üçün 263 milyon manat lazımdır".

**F.Ağamalının qaldırdığa daha bir məsələ uşaqlara müavnətin verilməsi barədə olub:** "Uşaqpulu ilə bağlı məsələ qaldırmışıq. 2011-ci ildən Azərbaycanda yenidoğulanların sayı azalır. Bunun qarşısını almaq üçün tədbirlər görülməlidir ki, bunlardan biri də müəyyən yaşa qədər uşaqlara müavinətin verilməsidir. Hesab edirik ki, hökumət bu təklifləri nəzərə alacaq. Bütövlükdə götürdükdə hökumətin bizim təkliflərimizə yanaşması məni qane edir".

**❑ Dünya SAKİT,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 244 (7133) 16 noyabr 2018

# Trampın media ilə düşmənçiliyinin əsas səbəbi

## ABŞ prezidentinin mətbuatla savaşının arxasında nə durur?

**ABŞ prezidenti Donald Trampla CNN telekanalının müxbiri Cim Akosta arasında qalmaqal böyüyür. Prezident Administrasiyası məlum qalmaqaldan sonra Akostanın Ağ Evə giriş icazəsini ləğv edib. Bu qərara etiraz olaraq, CNN Ağ Evin 6 yüksək rütbəli rəsmisinə qarşı məhkəmə iddiası qaldırıb.**



Tramp administrasiyası isə CNN-i haqlı saymır. Administrasiyadan bildiriblər ki, CNN-nin bununla bağlı ABŞ Konstitusiyasının 1 və 5-ci maddələrinə istinad etməsi əsassızdır. Ancaq məhkəmənin hansı qərarı verəcəyi məlum deyil. Xatırladaq ki, Ağ Evdə keçirilən mətbuat konfransında Tramp israrla ona Rusiya işi ilə bağlı sual verən Akostaya qəzəblənib, "CNN səninlə işlədiyi üçün utanmalıdır, kobud və bərbad bir adamsan" deyib.

Ancaq bu hadisə ABŞ prezidentinin media ilə ilk qarşıdurması deyil. Tramp prezident kimi and içib vəzifəsinin icrasına başladıqdan cəmi bir ay sonra - 2017-ci ilin fevralında nüfuzlu ABŞ mediası ilə konflikt yaşayıb. Bundan sonra Ağ Evdə keçirilən mətbuat brifinqinə BBC, CNN, "New York Times" daxil olmaqla 6 nüfuzlu media orqanı təmsilçisi buraxılmayıb.

Ondan əvvəl isə ABŞ prezidenti bu media orqanlarını "yalan xəbər yayan, "Amerika xalqının düşməni" adlandırmışdı. Bundan sonra Tramp Ağ Ev müxbirləri dərnəyinin ənənəvi illik qəbuluna qatılmayıb. Halbuki daha əvvəl istisnalar xaric, əksər prezidentlər bu mərasimlərdə iştirak ediblər. Artıq neçənci dəfədir ki, Tramp Amerika mediasını "xalqın düşməni" adlandırır.

İlk dəfə Trampı mediaya qarşı qəzəbləndirən Amerika mediasının, ilk dəfə "New York Times" qəzetinin anonim mənbələrə istinadən Trampın Rusiya ilə əlaqələrinin istintaqını aparan Robert Mueller haqda xəbər yayması olub. ABŞ prezidenti qəzetin anonim mənbələrə istinadən xəbər yaymasını "saxta xəbər" adlandırıb. Sonrakı dövrdə də Trampın tənqidləri əsasən ona qarşı, onun fəaliyyətini tənqid edən mediaya qarşı yönəlib.

BBC-nin analizinə görə, Tramp bununla ənənəvi avtoritar lider düşüncəsindən çıxış edir. ABŞ-ın hazırkı prezidenti medianın onun haqqında tənqidi xəbər yaymasını istəmir və buna qəzəblənir. Eyni zamanda o, medianın onun rəqibləri barədə tənqidi materiallar verməsini istəyir. İdmanda buna "hakimi təsir altına almaq" fəndi deyilir.

Maraqlıdır ki, ABŞ prezidenti xalqla ənənəvi qaydada media ilə deyil, sosial şəbəkə vasitəsilə əlaqə saxlayır. "CBS News" telekanalının anket sorğusunun nəticələrinə əsasən Trampın qatı tərəfdarlarının 91 faizi prezidentin onlara doğru məlumat verdiyinə inanır.

Amma Trampın bəzi bəlli media orqanları ilə düşmənçiliyinin arxasında həm də gizli rəqabət amili var. Trampı sərt tənqid edən media orqanları əsasən demokratlara yaxın media quruluşlarıdır. Tramp da bunu bilir, bu səbəbdən də medianı etibarsızlaşdırmağa çalışır. Çünki müstəqil media əsasən demokratlara yaxındır və Trampı tez-tez tənqid edir. Aydın məsələdir ki, istənilən prezident kimi Trampın da tənqid olunacaq tərəfləri çoxdur. Üstəlik, onun başı üzərində Rusiya ilə gizli əməkdaşlıq kimi ağır ittiham var. Hər kəsə aydındır ki, media zaman-zaman bu "kart"la Trampa sarsıdıcı zərbə vurmağa çalışacaq. Elə çalışır da. Sonuncu dəfə Akosta ilə Trampın deyişməsi jurnalistin Amerika prezidentinə Rusiya ilə əlaqələri ilə bağlı istintaq haqqında sual verməsi olub. Tramp isə özünü saxlaya bilməyib və Akostanı tənqid edib, daha sonra da CNN-ni bir daha tənqid edib.

Doğrudur, media ilə müharibə siyasətçilər üçün ağır nəticələr doğura bilər - hətta ABŞ prezidenti belə olsa. Ancaq indi Tramp üçün əvvəla başqa variant yoxdur. İstənilən halda media ondan əl çəkməyəcək. İkincisi də indi sosial medianın bu qədər inkişaf etməsi Trampa əlavə üstünlük verir ki, seçiciləri ilə media olmadan birbaşa əlaqə qura bilsin. Bu səbəbdən də ABŞ prezidenti geri çəkilmir, əksinə hücum edir, medianı etibarsızlaşdırmağa çalışır. Böyük risk olsa da, cəmiyyətdə mediaya mənfi münasibət bəsləyən kəsimin olması faktı Trampın əlini gücləndirir.

❑ **K.RÖVŞƏNOĞLU,**
**"Yeni Müsavat"**

# Avropa liderlərini ərəb şeyxləri ilə bağlayan tellər

## Neft dollarları Avropa siyasətini necə çirkləndirir?

**Bir neçə gün əvvəl Fransa prezidenti Emmanuel Makronun Səudiyyə Ərəbistanı vəliəhd-şahzadəsi Məhəmməd bin Salmanla əlaqələri və bu əlaqələrin siyasətə təsiri barədə yazmışdıq. Məsələ ondadır ki, Fransa prezidenti son hadisələr zamanı, yəni jurnalist Camal Qaşıqçı işində ər-Riyada qarşı xeyli mülayim yanaşması ilə diqqət çəkdi.**



Təbii ki, Fransa prezidenti rəsmi bəyanatında Qaşıqçı cinayəti ilə bağlı "qəzəbləndiyini" ifadə edib. Bazar günü Trampla görüşündə isə Ərəbistan hakimiyyətini Qaşıqçının qətli ilə bağlı daha çox məlumat açıqlamağa çağırıb.

**Lakin eyni zamanda Fransa prezidenti Səudiyyə Ərəbistanı haqqında kəskin, "küsdürücü" ifadələr işlətməkdən çəkinib.** Çünki Fransa Səudiyyə Ərəbistanına silah satır, üstəlik Makronun özünün vəliəhd-şahzadə ilə isti münasibətləri var. Slovakiyaya səfəri zamanı Makron bildirib ki, Səudiyyə Ərəbistanına silah satışının davam edəcək. Fransa prezidenti açıq şəkildə deyib ki, "silah satışını dayandırın" çağırışı açıq bir demoqogiyadır, çünki silah satışının Qaşıqçı cinayəti ilə bir bağlantısı yoxdur. Eyni zamanda o, Yəmən müharibəsinin də Qaşıqçı işi ilə birbaşa bağının olmadığını deyib.

**Fransa Səudiyyə Ərəbistanı ilə dost ölkədir.** Krallıq son 10 ildə Fransadan 12 milyard dollar dəyərində silah və texnika alıb. Təbii ki, indi Yaxın Şərq ölkələrinə silah satmaq Qərb ölkələri üçün sərfəli ticarətdir. Bu səbəbdən də indi Fransa hökuməti bir tərəfdən demokratiya, söz və vicdan azadlığı prinsiplərinin müdafiəçisi rolundan imtina edə bilmir, digər tərəfdən isə Səudiyyə Ərəbistanı kimi qiymətli müştərini itirmək istəmir.

**Eyni zamanda Makronun Səudiyyə Ərəbistanı vəliəhd-şahzadəsi ilə şəxsi əlaqələri var.** Yeri gəlmişkən, ötən ilin sonlarında xəbər yayıldı ki, Səudiyyə Ərəbistanının vəliəhd-şahzadəsi Məhəmməd bin Salman Paris yaxınlığında 14-cü Lüdoviq qəsrini hələ 2015-ci ildə 300 milyon dollara satın alıb. Bu, dünyanın ən baha evi hesab olunur. Belə görünür ki, vəliəhdin Parisə məhəbbətinin tarixi yeni deyilmiş.

**Bu ilin yazında isə Məhəmməd bin Salman Parisə səfər edib və bu zaman Makron tərəfindən isti qarşılanıb.** İki liderin yanında bir də Livanın baş naziri Saadi Həriri olub. O Həriri ki, ötən il bu günlərdə ər-Riyadda girovluqda saxlanılırdı və Makronun Kral sarayına səfərindən sonra azad edilərək ölkəsinə göndərildi. Hətta bunu ilk vaxtlar etiraf etməsə də, bu ilin yazında Makron etiraf etdi. Fransa prezidenti deyib ki, Livanda yeni bir vətəndaş müharibəsinin qarşısını alıb, Ər-Riyada gedərək kral ailəsi ilə görüşüb və Haririnin azad edilməsinə nail olub. Doğrudur, bu açıqlamanı Səudiyyə Ərəbistanı XİN rəsmi açıqlama ilə təkzib etdi, amma buna baxmayaraq Həriri hadisəsi hələ ötən ildən bəlli idi.

**Ancaq bu, Fransa prezidentlərinin ərəb liderləri ilə ilk dostluğu deyil.** Bundan öncə keçmiş prezident Sarkozinin adı Liviyanın devrilmiş lideri Qəzzafi ilə qaranlıq əlaqələri ortaya çıxıb. Hələ 2011-ci ildə Liviyada üsyan başlayanda Qəzzafi martın 3-də "France 3" telekanalına verdiyi müsahibədə Sarkozinin kampaniyasına dəstək verdiyini təsdiqləmişdi.

**Daha sonra bu hadisə Sarkoziyə qarşı rəsmi ittihama çevrildi və məhkəmə tərəfindən təsdiqləndi.** Müəmmar Qəzzafinin tərcüməçisi olmuş Miftah Missuri Nikola Sarkozinin Liviya liderindən 20 milyon avro aldığını etiraf edib. Tərcüməçi bildirib ki, 2005-ci ildə Fransa daxili işlər naziri olan Nikola Sarkozi Liviyaya səfər edib. Sarkozi o zaman Qəzzafiyə bildirib ki, 2007-ci ildə prezident postuna namizədliyini irəli sürmək niyyətindədir. Liviya lideri ona cavabında bunun sevindirici xəbər olduğunu və Liviyanın dostu olan bir şəxsin Fransa prezidenti seçilməsinə dəstək verəcəyini bildirib.

**Sabiq prezidentin tərcüməçisinin sözlərinə görə, Sarkozinin seçkiqabağı qərargahının nümayəndələri liviyalı məmurlarla görüş keçirib: "Bu görüş zamanı sənəd hazırlanmışdı.** Sənəddə Liviya rəhbərliyindən Sarkozinin seçkiqabağı kampaniyasına dəstək məqsədilə 50 milyon avro ayrılması qeyd olunmuşdu. Sonra Müəmmar Qəzzafi həmin məbləği 20 milyon avroya azaltmışdı. Qəzzafi şəxsən mənə bu barədə danışmışdı".

**Qeyd edək ki, Liviyanın neft milyardları Qəzzafinin Avropanın bir çox nüfuzlu liderlərinə təsir imkanı yaradıb.** İnqilab zamanı Liviyanın Almaniyadan, Britaniya ilə gizli silah alveri, siyasilərlə rüşvət əlaqələri barədə iddialar ortaya çıxıb. Ancaq 2011-ci ilin sentyabrında Qəzzafi üsyançılar tərəfindən ələ keçirilərək öldürüldü. Daha sonra onun xarici xüsusi xidmət orqanları tərəfindən öldürüldüyü versiyaları ortaya atılsa da, bunu sübut etmək mümkün olmadı. Lakin bir şey aydın idi ki, Avropanın bir sıra ölkələri və dövlət adamları ilə Qəzzafinin gizli əlaqələri vardı.

**Misir lideri Hüsnü Mübarəkin İspaniyada tapılan sərvəti, eləcə də zəngin ərəb şeyxlərinin Avropa və Amerikadakı siyasətçilərlə bu günə qədər açılan və açılmayan çoxsaylı əlaqələri barədə onlarla faktlar mövcuddur.** Lakin "zamanı" gələnə qədər bu məlumatlar adətin açıqlanmır.

❑ **KƏNAN,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 244 (7133) 16 noyabr 2018



# Abel müəllimin şəhid olması

Zamin HACI
zaminhaci@gmail.com

*(az qala dini əhvalat)*

**Abel müəllimin rektorluqdan çıxardılması, əlbəttə, yaxşı oldu. Gör neçə il idi orda başçılıq edirdi... Az qala Artur müəllimin Buz döyüşündə qalib gəlib baş nazir vəzifəsini ələ keçirməsindən 3-4 il sonra onu BDU-ya rektor qoymuşdular. Ötən illərdə BDU Abel müəllimə layiq şəkildə inkişaf etmişdi, Harvardı, Oksfordu qatlayıb cibinə qoymuşdu. Bütün reytinqlərdə BDU ilk onluğa girməsə də, ən azı son beşliyə düşmürdü, bu isə, gəlin, etiraf edək, indiki qarışıq zəmanədə böyük uğurdur. Odur, Suriyanın Homs şəhərində heç məktəb qalmayıbdır.**

Dünyanın bütün Nobel almış alimləri Bakıya gəlməyi, "Elmlər Akademiyası" metrosundan çıxıb dönər almağı, BDU-nun işıqlı auditoriyalarında mühazirə oxumağı arzu edirdilər, həsrətdən dodaqları nanocadar-cadar olmuşdu. Axı Abel müəllim həm də universitetdə nanotexnologiyaları araşdıran kimyəvi laboratoriya qayırmışdı. Görəsən, indi o laboratoriyanın axırı necə olacaq? İndi kolbada şərab qayırıb İspaniyaya aparmaq mümkün olacaqmı? Yaşayarıq, görərik. Yaşamasaq da sağ qalanlar görəcəkdir. Əsas odur, kimsə görsün - bizə başqa nə lazımdır?

Sözgəlişi, bu səfirlikdə işləyən oğul qalmaqalı Abel müəllimin tərcümeyi-halında ilk hadisə deyildir. Mənim yadıma gəlir, hardasa 10 il qabaq müğənni Röyanın qanunsuz şəkildə BDU hüquq fakültəsinə qəbul edildiyi ortaya çıxmışdı. Sən demə, bu qız Abel müəllimin deputat seçkiləri zamanı iclaslarda mahnı oxuyurmuş, müəllim də əvəzini vermək üçün onu hansısa "oxuduğu" məktəbdən, misal üçün, "Dağıstan Universitetinin Mahaçqala filialının Saratov şöbəsinin Sıktıvkar bölməsi"ndən BDU-ya perevod eləmişdi. Özü də birbaşa əyani şöbəyə! Təsəvvür elə. Röya xanım "Su sonasının yumurtası", ya da "Sonanın uşaqları" şadlıq sarayında "İndi dünyam da dəyişsə belə səninəm" oxuyurdu, ancaq BDU-nun Qədim Roma hüququ kafedrasında Gülbala müəllim jurnalı açıb onun adının qabağına quş qoyurdu, sanki Röya xanım indicə bilet çəkib "Abducet praedam cui occurit prior"la "Dic, duc, fac, fer"in fərqlərini izah etmişdir. Hətta universitetin mətbuat xidmətinin ilk açıqlamasında deyilirdi ki, Röya xanımın boğuq səs tembri onun gecələr yuxusuz, oyaq qalıb səhərəcən dərs oxumasının nəticəsidir.

Lakin qalmaqal şiddətlənəndən sonra BDU müğənnini qabaqca qiyabi şöbəyə "keçirtdi", bu da yetməyəndə isə "dərsə gəlmədiyi üçün keçən ildən universitetdən xaric olunduğu" açıqlaması verildi. Beləcə, uca millətimiz bəlkə də ən qəşəng, xarici yazarlar demişkən, seksi bir prokurora malik olmaq şansını itirdi. Ya da Röya xanım hakim olub ölüm hökmü kəssə məhkumlar uf demədən bununla razılaşardılar. Nəsə, qismət deyilmiş. Keçənə güzəşt deyərlər. Var ümid gələcəyə, Səs versək Elçibəyə. Hava yaman soyuqdur, ermənilər toyuqdur. (Dünən BDU-ya hazırlaşan bir uşağa bu sonuncu şüarın 1988-ci il Meydan hərəkatımızın şüarlarından biri olduğunu dedim, tarix fənnindən soyudu).

Bəli, heç kim vəzifədə əbədi deyil, Abel müəllim də bir gün getməliydi. Sadəcə, gərək İspaniyada dava salmaq, alver eləmək ittihamıyla getməzdi. (İndi xatırlayıram ki, bu İspaniyaya gedib-gəlmək nəsə bizim millətə düşmür. Vaxtilə bir nəfərin də Barselona təyyarəsində davası söhbəti yayılmışdı). Həmçinin, rektorun getməsi universitetdə böyük təkanlara, tektonik silkələnmələrə səbəb olacaqdır. Artıq dünən bir sayt yazmışdı ki, 5 prorektoru da çıxaracaqlar. Bu bir az pis ənənədir. Təzə rektor gəlir, özünə təzə prorektorlar gətirir, təzə prorektorlar təzə katibələr yığırlar, katibələr tələbələri yeniləyir və sairə və ilaxır. Nəticədə dövlətçiliyimizin estafetində pozuqluq yaranır. Ən yaxşısı rektoru işdən çıxaran kimi universiteti dibindən bağlayıb təzəsini açmaq olardı. Elmi dildə desək, restrukturizasiya prosesi lazımdır. Qədim Misirdə rektor öləndə (iraq olsun) kafedra müdirləri və dekanları onunla birgə ehramda diri-diri basdırırmışlar.

**İndi söz əlaqədar təşkilatlarındır.**

# Moskvaya qarşı "qaz" gedişi - İrəvan Kremli şantaj edir

## Paşinyandan "Qazprom"a ağır ittihamlar - kritik 6 dekabr gözləntisi və erməni nəşrindən SOS; işğalçı ölkə rəhbərliyi Astana fiaskosu qarşılığında Rusiyadan qaz güzəşti qopara biləcəkmi?..

**KTMT-nin ("Rus NATO-su") son Astana sammitində Ermənistan rəhbərliyinin uğursuzluğu işğalçı ölkədə hələ də müzakirə mövzusudur. Xüsusən də siyasi müxalifət və bir sıra ekspert çevrələri belə bir nəticəni - KTMT baş katibliyinin vaxtından əvvəl İrəvanın əlindən çıxmasını baş nazir əvəzi Nikol Paşinyanın xarici siyasətdə qeyri-peşəkarlığı və uzağı görə bilməməsi ilə əlaqələndirir.**



Onların əminliyinə görə, baş katib Yuri Xaçaturova qarşı qəfildən cinayət işi qaldırılanda Paşinyan iqtidarı bunun mümkün sonuclarını, Moskvanın qəzəbini, xüsusən də Ermənistanın təhlükəsizliyinin risk altına düşəcəyini hesablamalı idi.

*****

Nikol Paşinyana qarşı bu ittihamlar şübhəsiz, seçki kampaniyasının başlaması səbəbindən indi məxsusi önəm daşıyır. Yəni ən əvvəl anti-təbliğat xarakterlidir. Hələ ki baş nazir əvəzi onlara tutarlı cavab verməyib, kontur-təbliğata baş vurmayıb. Amma Astanada "ağzı yanan" Paşinyan əvəzində deyəsən Moskvaya qarşı "qazlı" gedişə qərar verib. Söhbət Astana fiaskosundan dərhal sonra "Qazprom" şirkətinə, daha dəqiqi, onun işğalçı ölkədəki törəmə şirkəti olan "Qazprom-Ermənistan"a qarşı ağır korrupsiya ittihamlarının irəli sürülməsindən gedir.

Belə ki, "Yeni Müsavat"ın erməni qaynaqlarına istinadən verdiyi xəbərə görə, Ermənistanın Dövlət Gəlirləri Komitəsi bəyan edib ki, "Qazprom-Ermənistan" son illərdə xüsusilə böyük məbləğdə vergilərdən yayınıb. Sitat: "Kompleks vergi yoxlamaları nəticəsində müəyyən edilib ki, "Qazprom-Ermənistan"a 2016-2017-ci illərdə gəlirlərdən vergilər haqda hesabatlarda açıq-aşkar yalan məlumatlar verib. Nəticədə vergi öhdəlikləri yanlış hesablanıb və bir neçə milyard dram az vergi ödənilib".

"Qazprom-Ermənistan"ın bu bəyanata reaksiyası isə gecikməyib. Şirkət ittihamlarla razılaşmayıb və bəyan edib ki, yoxlamalar hələ başa çatmayıb. Şirkətdən o da bildirilib ki, vergi ödənişləri ilə bağlı tədqiqatlar keyfiyyətli aparılmayıb. "Bizə bununla əlaqədar inzibati orqan tərəfindən heç bir dəlil-sübut təqdim edilməyib. Bu da fikrimizcə, absurd qənaətlərə gətirib çıxarıb", - deyə "Qazprom-Ermənistan"dan bəyan edilib.

Bu xüsusda erməni nəşri "Joxovurd"un dünənki məqaləsi də diqqət çəkir. Məqalədə deyilir: "Məsələdə kimin haqlı, kimin haqsız olduğunu zaman göstərəcək. Dövlət Komitəsi hələ səsləndirdiyi ittihamları sübut eləməlidir. Ancaq burada başqa bir detal mühüm önəm daşıyır: nədən Komitə məhz indi bu addıma gedib - nə vaxt ki, Rusiyanın Ermənistana satdığı qazın qiyməti məsələsi gündəmdədir? Ehtimal ki, bu məsələ dekabrın 6-da (KTMT-nin Sank-Peterburq toplantısında - "YM") Paşinyan-Putin görüşündə müzakirə olunacaq. Ancaq həmin görüş ərəfəsində belə bir addımın atılması (ittihamlar irəli sürülməsi - "YM") çox təhlükəli nəticələr doğura bilər və Rusiya hakimiyyətinin əlinə yeni müqavilə üzrə qaz tariflərini azaltmaqdan imtina üçün bəhanə verər".

**Bununla bağlı erməni nəşri sual edib:** "Bu - təxribatdır, yoxsa danışıqlar öncəsi "Qazprom"u küncə sıxmaq cəhdi? İstənilən halda ifrat ehtiyatlılıq işin ziyanına olmazdı".

*****

Yada salaq ki, dekabrın 6-da KTMT-nin Sankt-Peterburq toplantısında quruma yeni baş katibin təyin edilməsi məsələsində nöqtə qoyulacaq. Ola bilsin, Paşinyan "Qazprom"a qarşı ittihamlar hesabına Rusiyanı şantaj eləmək, əvəzində ya qazın qiyməti, ya da KTMT-yə baş katib təyinatında Moskvadan hansısa güzəştlər qoparmağa ümid edir.

Lakin bu kimi "qazlı" gedişlər əks-effekt verə bilər. Çünki Moskva özünə qarşı şantaj dilini xoşlamır - o ki ola, belə şantaj və hədələr satellit Ermənistandan gələ. Məsələ ondadır ki, KTMT baş katibliyi mövzusu, faktiki, qapanıb. Bunu İrəvanda da yaxşı bilirlər. Yeni baş katib böyük ehtimalla, Belarusdan - Azərbaycana dost münasibətdə olan ölkədən olacaq.

O ki qaldı Ermənistana satılan təbii qazın yeni tariflərinə yəqin ki, bununla bağlı qərarı Moskva 9 dekabr seçkiləri bitəndən, daha doğrusu, Paşinyan hökumətinin xarici siyasət oriyentirləri tam dəqiqləşəndən sonra verəcək. Ermənistan soyuq qışa bahalı qazla da girə bilər.

Bu, Moskvanın yeni hökuməti ram eləmək üçün əl ata biləcəyi bəlkə də ən asan yoldur. Ona görə ki, mühüm enerjidaşıyıcısı olan təbii qazın bahalaşması, əslində isə dünya bazarı qiymətinə Ermənistana satılması işğalçı ölkədə avtomatik şəkildə mal, məhsul və xidmətləri bahalaşdıracaq.

Siyasi müşahidəçilərə görə, prezident Vladimir Putinin Paşinyana ilk ciddi zərbəsi, sürprizi məhz bu ola bilər. Bundan əlavə, Ermənistanın Rusiyadan silahları kredit qarşılığında alması onu Moskvadan daha güclü asılılığa salmaqdadır. Çünki bu kreditləri ödəmək lazım gələcək. Kasıb bir ölkənin baş nazir əvəzi işləyən Paşinyanın Rusiyadan həm qaz, həm də silah asılılığını necə azaldıb Qərbə üz tutacağı çox maraqlıdır. Moskva isə "cücəni" qışda sayacaq...

❑ "Yeni Müsavat"ın analitik şöbəs

# Azərbaycan üçün "Rus NATO-su"nun önəmi dəyişir - maraqlı gəlişmə

## Politoloq: "Blokla münasibətlərimizdə yeni dövr başlaya bilər"

**"Regionumuzda baş verən vəziyyəti müşahidə edirik, o cümlədən Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının bu yaxınlarda Qazaxıstanda keçirilmiş sammitini çox diqqətlə izlədik. Biz buna laqeyd deyilik. Fikrimcə, bunu başa düşmək olar. Çünki Ermənistan Azərbaycan ərazilərini işğal edən ölkədir və əlbəttə ki, biz hərbi-siyasi təşkilat olan Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatına hansı ölkənin nümayəndəsinin rəhbərlik etməsinə biganə deyilik".**



**Bunu Azərbaycan prezidenti İlham Əliyev Belarus Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Gennadi Axramoviçlə görüşdə deyib.** Dövlət başçısı bildirib ki, bu məsələlərin tərəfdaşlar və dostlar arasında müzakirəsi təbiidir: "Biz beynəlxalq siyasətin digər məsələlərini də müzakirə edirik. Bu da Ermənistanda hər hansı təşviş doğurmamalıdır. Ermənistanın Xarici İşlər Nazirliyinin bu yaxınlardakı bəyanatını beynəlxalq təcrübədə tamamilə yolverilməz hesab edirik. Xarici İşlər Nazirliyi digər ölkənin, xüsusilə də müttəfiq sayılan ölkənin prezidentinin hərəkət və sözlərini şərh edə və yanlış adlandıra bilməz. Yanlışlıq belə əməlləri özünə rəva bilən Ermənistanın Xarici İşlər Nazirliyinin davranışıdır. Görünür bu, onların dünyanı və dünya xəritəsində öz yerlərini qeyri-adekvat dərk etmələrinin nəticəsidir. Eyni zamanda, bildiyiniz kimi, Ermənistan tərəfi bəyan edib ki, Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının problemləri mövcuddur. Yəqin ki, burada onlar haqlıdırlar. Bu problem, ilk növbədə elə Ermənistanın özüdür və Ermənistanın yaratdığı problemlərdir. Biz, əlbəttə ki, Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatına baş katibin Ermənistan nümayəndəsinin təyinatını narahatlıqla qəbul etdik. Əvvəla, ona görə ki, bu dövlət Azərbaycana qarşı düşmənçilik siyasəti yürüdür. İkincisi də əməllərinə görə cinayət məsuliyyətinə cəlb olunmuş namizədin özünün şəxsiyyətinə görə. Burada da, deyildiyi kimi, bizdə personajın özünün hansı keyfiyyətlərə malik olması şübhə doğurmur".

**İlham Əliyev bildirib ki, Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının keçmiş baş katibinin rəhbərlik etdiyi və Ermənistan ordusu üçün ağır məğlubiyyətlə nəticələnən Azərbaycan və Ermənistan ordularının döyüş qarşıdurmaları zamanı rüsvayçı davranışını xatırlamaq kifayətdir**: "Yeni Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı kimi mühüm beynəlxalq quruma bu şəxsin təyinatı müəyyən dərəcədə təşkilata hörmətsizlik idi. Bu adamın cinayətə görə təqib edilərək sürgün edilməsi isə beynəlxalq təcrübədə nadir hadisədir - beynəlxalq məmur bu minvalla məsuliyyətə cəlb olunur və üzv ölkələrə heç bir xəbər verilmir. Buna görə də bir daha demək istəyirəm ki, əgər Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının hər hansı bir problemi varsa, o da Ermənistandır və onun yaratdığı problemlərdir".

Ölkə başçısının KTMT ilə bağlı fikirləri, xüsusən də bu qurumu mühüm beynəlxalq qurum adlandırması siyasi təhlilçilərin diqqətindən yayınmayıb. Bu fikirlər Azərbaycanın quruma münasibətində irəliyə doğru dəyişikliklərin, ona laqeyd olmamağın əlamətləri kimi qəbul edilir.

Bu barədə danışan politoloq **Qabil Hüseynli** "Yeni Müsavat"a bildirdi ki, son zamanlar müşahidə olunan proseslər Azərbaycanın KTMT ilə münasibətlərində yeni dövrün başlaya biləcəyi rəyini yaradır: "KTMT dövlət başçılarının Astana toplantısından əvvəl Rusiya mətbuatında, xüsusən "Kommersant" qəzetində toplantıya Azərbaycan prezidenti İlham Əliyevin dəvət ediləcəyinin gözlənildiyi barədə yazılmışdı. Bu informasiya yayıldıqdan sonra Ermənistan rəsmi mövqe ilə çıxış edərək bəyan etdi ki, KTMT qapalı təşkilatdır, bu təşkilatın işində onun üzvü olmayan hər hansı ölkənin prezidentinin və ya baş nazirinin iştirak etməsi qeyri-mümkündür. Hətta bəyan etdilər ki, Ermənistan konsensus hüququndan istifadə edərək belə addımların atılmasına qarşı çıxacaq. Mən ehtimal kimi deyirəm, bəlkə də "Kommersant" qəzetinin yazdığı doğru idi və Azərbaycan prezidentinin Astana görüşünə dəvət edilməsi gündəmdə idi. Bu məsələnin üzərində Qazaxıstan prezidenti Nursultan Nazarbayevin də ciddi surətdə işlədiyini söyləmək mümkündür. Amma görünür son anda konsensus prinsipi məsələsi nəzərə alınaraq qəzetin yaydığı məlumatın gerçəkləşməməsini qərara alıblar. Lakin əvəzində Ermənistanın bundan sonrakı bəhanəsini əlindən alan qərar verildi. Belə ki, KTMT nizamnaməsinə qurumda tərəfdaş və müşahidəçi statusda iştiraka icazə verən maddə daxil edildi. Bu maddə artıq bundan sonra Ermənistanın konsensus məsələsindən sui-istifadəsinin qarşısını alacaq. İstənilən dövlət, o cümlədən Azərbaycan dəvət olunarsa və ya istəyərsə KTMT-də məşvərətçi, yaxud müşahidəçi statusda təmsil oluna biləcək. İndi yeni bir reallıq yaranıb və bu reallığın müəyyən ip ucları görünməkdədir. Məsələn, Belarus prezidenti Aleksandr Lukaşenko Azərbaycanın Minskdəki səfirini qəbul edib KTMT haqqında danışıb. Azərbaycan səfiri ilə KTMT barədə müzakirə aparılmasının özü az məna daşımır. Görünür, KTMT-nin struktur dəyişiklikləri ilə yanaşı bu struktur dəyişikliklərində postsovet məkanındakı ölkələrin bəzilərinin dəvət ediləcəyi də istisna deyil. Bu sırada Azərbaycanın, Moldovanın, Özbəkistanın adı çəkilir. Tərəfdaş və ya müşahidəçi statusda hansısa ölkənin və ya ölkələrin KTMT-nin işində iştirak edə biləcəyi reallıq kimi görünməyə başlayıb".

**Politoloq vurğuladı ki, Azərbaycan prezidentinin Belarus səfiri ilə görüşdə KTMT-ni mühüm beynəlxalq təşkilat kimi dəyərləndirməsi, təşkilat daxilindəki problemlərin yalnız Ermənistandan qaynaqlandığını ifadə etməsi onu göstərir ki, Azərbaycan tərəfi də bu təşkilata biganə deyil**: "Həmçinin bu təşkilatın işi ilə, orada aparılan müzakirələrlə, bütövlükdə bu qurumun atacağı addımlarla bağlı məlumat toplamağı lazımlı bilir. Bu da təsadüfi deyil. Yuri Xaçaturovun baş katibliyində bizim KTMT ilə hər hansı bir əməkdaşlığımızın olması mümkün deyildi. İndi Azərbaycan tərəfinin bu qurumun barəsində ifadə etdiyi mövqe vəziyyətin dəyişdiyinin əlamətidir. Ola bilsin ki, Azərbaycan tərəfi KTMT ilə tərəfdaşlıq və ya müşahidəçi statusda əməkdaşlıq üçün müraciət də eləsin. Düzdür, belə bir rəsmi məlumat hazırda yoxdur, amma hər halda belə bir ehtimalı söyləmək üçün ip ucları görünür".

❑ **Etibar SEYİDAĞA, "Yeni Müsavat"**

# "Şərabı yarsız içəndə bir az da qəm gətirər", elə deyilmi, xanım?



**Xalid KAZIMLI**

**Xalqdan oğurlanan pullarla xaricdə şahanə həyat tərzi keçirən, milyonları sağa-sola səpələyən, iş quran həmvətənlərimizin adları keçən ajiotaj səngiməmiş məşhur futbolçu Kriştiano Ronaldonun da bənzər bədxərclik etdiyi barədə xəbər yayılıb.**

Xəbərə görə, portuqaliyalı futbolçu xanımı Corcina və oğlu ilə birlikdə Londonda yerli otellərdən birində bir gecə üçün 10 min avrodan çox pul ödəyib. Restoranda isə Ronaldo 15 dəqiqə ərzində şəraba 31 min avro verib. Onlar əvvəlcə qiyməti 20 min avro dəyərində olan şərab içiblər, daha sonra isə 10 min avroluq başqa bir şəraba keçiblər.

Bu London nəymiş belə? Buradakı şərabların bir şüşəsi nədən 10-20 min avrodur? Nədən düzəldirlər bu şərabı? Üzümdənmi, qızıldanmı, jenşendənmi?

Amma bu başqa söhbətin mövzusudur. Kapitalist dünyasında varlıları soymaq üçün uydurulan "dünya brendi", "eksklüziv məmulat" kimi şeylərə görə hər il milyardlar qazanılır. Qısaca onu deyək ki, dünyanın ən keyfiyyətli pambığından, ipəyindən hazırlanan corabın qiyməti 3-4 avrodan artıq olmaz, ancaq varlıların bir cüt coraba 150-200 avro verdikləri də olur. Brendmiş!..

Əlbəttə, Ronaldonun öz xanımıyla 10-20 min avroluq şərab içməsi ilə Zamirə Hacıyevanın tək-tənha 3 min avroluq şərab içməsinin arasında fərq böyükdür. Təkcə ona görə yox ki, şairimiz demişkən, "şərabı yarsız içəndə bir az da qəm gətirir".

Əsasən ona görə ki, Ronaldonun şəraba və yaxud Mərakeşdəki kişi dostunun yanına uçmaq üçün kirayəlidiyi xüsusi təyyarəyə ödədiyi pulun qaynağı bəllidir. Adamın aylıq qazancı milyonlarla ölçülür. Bəzən onu da vergidən yayınmaqda suşlayırlar, amma ortada olan odur ki, bu məşhur futbolçu çox qazanır, çox vergi ödəyir və çox xərcləyir.

Ronaldo xərclədiyi pulu heç kəsdən oğurlamır. Bu, onun 90 dəqiqə boyunca yaşıl meydanda at kimi qaçmasının, ayağına, dizinə dəyən təpiklərin, belinə, böyrünə vurulan dürtmələrin, milyonlarla insana yaşatdığı sevinc hissinin əvəzidir.

Bir də var, adamın biri heç bir xüsusi istedadı, qabiliyyəti, bacarığı olmadan, özünün olmayan, ona etibar və əmanət edilmiş milyonların üzərinə qonsun və onu ata malı kimi xərcləsin.

Bunlar çox fərqli şeylərdir. Bir adama yüksək, məsuliyyətli vəzifə tapşırılanda avtomatik olaraq ona talançılıq hüququ verilmir. Fəqət bizdə, eləcə də dünyanın əksər yerlərində özünə sərvət toplamaq istəyənlər cəzasız qalacaqlarına əmin olan kimi xalqın, dövlətin malını oğurlamaqdan çəkinmirlər.

Bu, əsasən ona görə baş verir ki, bu adamlar özlərindən başqa da çoxlu oğrular görür, onların cəzasız şəkildə, arın-arxayın yaşadığına tamaşa edir, özlərini oğrular aləmində asudə sayırlar. Bu isə əvvəl-axır onların məsuliyyət hissini tamam öldürür, elə bilirlər ki, hər şeyi oğurlaya, yerli-dibli silib-süpürə bilərlər.

Bu artıq oğruların "bal tutan barmaq yalar" imtiyazını aşmaları deməkdir, heç kəs milyardları oğurlayanlara göz yuma bilməz, güzəştə getməz.

Könül istər ki, dövlətin büdcəsini, xalqın cibini soyan, hazırda Avropada - Çexiyada, Fransada, Almaniyada, İsveçrədə, eləcə də ABŞ-da, İngiltərədə yaşayan və xalqdan oğurladıqları pulları Zamirə Hacıyeva kimi göstərə-göstərə olmasa da, kef-damağa xərcləyən oğruların hamısı ifşa olunsun.

Bütün büdcə oğrularının taladığı milyonları, milyardları yenidən bir büdcəyə, fonda toplamaq mümkün olsa, Azərbaycan boyda ikinci ölkə təsis etmək, saxlamaq, inkişaf etdirmək olar.

Biz ona görə dünyanın ən inkişaf etmiş ölkələrinin sırasına qoşula bilmədik və bilmirik ki, oğrular ölkəni talayıblar, bir çoxu qaçıb xaricdə özlərinə təhlükəsizlik çənbərləri düzəldiblər, bəziləri isə yığdıqlarını yığıb, dərin sular balıqları kimi dibə çəkiliblər, unudulmaq istəyirlər. İş başında olanların dərdi isə tamam başqadır.

Biz o oğruların içində yalnız həddini aşanları tanıyırıq, təvazökar oğrularla işimiz yoxdur. Onlar özlərini hədəfə çıxarmır, villalarını, bahalı lüks avtomobillərdən ibarət qarajlarını gözə soxmur, gündə bir 200 min manatlıq saat taxmır, 10 min avroluq şərabı camaatın gözü qabağında içmir.

**O havaya sovrulan, Londondakı, Parisdəki "brend"lərin milyarder sahiblərinə qapdırılan pullar bu dövlətin, bu xalqın, bu ölkədə yaşayan hər bir vətəndaşın haqqıdır.**

# Nazirlik “tüstülü restoranlar”la mübarizəni sərtləşdirdi

**Məhərrəmlik ayının başa çatmasından sonra iaşə obyektlərinin, şadlıq saraylarının fəaliyyəti genişlənib. Xüsusilə də Bakı şəhərində fəaliyyət göstərən şadlıq sarayları, demək olar ki, hər gün doludur. Yəni hər gün onlarla adama süfrələr açılır, yeməklər bişirilir. Bəs bu yeməklərin tüstüləri yenə də ətrafa yayılır?**

## Ramal Bağırov: “Bakı-Abşeron ərazisində təxminən 90-a yaxın ictimai-iaşə obyektinə müvafiq qurğu quraşdırılıb”



Məlumat verək ki, prezident İlham Əliyev oktyabrın 9-da Nazirlər Kabinetinin 2018-ci ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında bir sıra əhali, ölkə üçün vacib məsələlərə toxundu. Ölkə başçısı həmçinin havanı çirkləndirən məişət obyektlərinə də ciddi xəbərdarlıq etdi. Prezident bildirdi ki, kim əməl etməyəcəksə, o şadlıq evinin, məişət obyektinin qapısı bağlanacaq.

Lakin hələ də qaydalara əməl etməyib, “tüstüləməyə” davam edən restoranlar var.

Məsələ ilə bağlı “Yeni Müsavat”a danışan Ətraf mühit üzrə milli monitorinq departamentinin direktoru **Ramal Bağırov** bildirdi ki, hazırda iaşə obyektlərinin müvafiq qurğularla təmini istiqamətində işlər davam edir:

“Lakin demək olmaz ki, bütün restoranlar bu qurğuları quraşdırıblar. Bu günə olan məlumat belədir ki, hazırda Bakı-Abşeron ərazisində təxminən 90-a yaxın ictimai-iaşə obyektinə qurğu quraşdırılıb. 200-ə yaxın obyektin üzərində iş gedir. Yəni onların bəzilərinin müvafiq müqavilələri var, bəziləri isə ilkin işlərə başlayıblar. Deyim ki, bu, uzunçəkən prosesdir. Artıq 150-yə yaxın ictimai-iaşə obyekti heç bir iş görmədiyinə görə, ətraflarından analiz götürmüşük və atmosferə buraxdığı zərərli maddənin normadan artıq olduğunu müəyyənləşdirib, cərimeyə göndərmişik. Onların içərisindən 9-u ümumiyyətlə, bu qurğunu quraşdırmaqda maraqlı deyildi. Hesab edirdilər ki, proses bu formada da davam edəcək. Artıq onlarla da bağlı müvafiq sənədlər toplanılıb, məhkəməyə müraciət olunacaq. Bu restoranların sonunun necə olacağı barədə məhkəmə qərar verəcək. Məhkəməyə verildikdən sonra bu iaşə obyektlərindən 4-ünə qurğu quraşdırılıb. Digər 5 obyektin işi isə hələ də məhkəmədədir. Bundan əlavə 11 ictimai-iaşə obyektinin də sənədlərini məhkəməyə vermək üçün hazırlayırıq. Məhkəməyə verildikdən sonra ictimai-iaşə obyekti qurğunu quraşdırırsa, yəqin ki, onun fəaliyyətinin dayandırılması barədə qərar verilmir. Çünki tələb edilən qurğunu quraşdırır”.

**R.Bağırov bildirib ki, monitorinq keçirən zaman görürük ki, atmosferə tullantı atanlar daha çox restoranlardır:**

“Şadlıq evləri gün ərzində 2-3 saat atmosferə tullantı atırlar. Restoranlar isə bütün gün boyu bu işlə məşğuldur. Yəni məsələ şadlıq evinin böyüklüyündən, görkəmindən asılı deyil. Kiçik restoranlar şadlıq evlərindən daha çox tüstü verirlər”.

Redaksiyamıza müraciət edən İçərişəhər sakinləri orada fəaliyyət göstərən restoranların çoxluğundan, atmosferi çirkləndirmələrindən narazılıqlarını bildirmişdilər. R.Bağırov söylədi ki, İçərişəhər ərazisində də monitorinqlərə başlayıblar:

“Onu da deyim ki, artıq İçərişəhərdə də işlərimiz başlayıb. Nizami küçəsi və digər mərkəzi ərazilərdə yerləşən ictimai-iaşə obyektlərinin bir neçəsində bu qurğudan var. Olmayanlara isə xəbərdarlıq edirik ki, müvafiq qurğunu quraşdırsınlar. İçərişəhər ərazisində samovar düzüb qaynadanlara əməkdaşlarımız tərəfindən tövsiyələr edilir ki, atmosferi çirkləndirməsinlər. Restoranlardan çıxan tüstü ilə müqayisədə təbii ki, bu, çox kiçikdir. Cərimələrə gəlincə isə bu, hüquqi, vəzifəli, fiziki şəxs olmasına görə fərqlənir. Ümumilikdə isə 8500 manatdan, 12500 manata qədər cərimə olur. Bu, atmosferə atılan tullantıların miqdarından və keyfiyyətindən də asılıdır. Qurğuların qiymətinə gəlincə isə bu, bizə məlum deyil. Hazırda Bakı Ekspo Mərkəzində keçirilən "Caspian Ecology" 9-cu Azərbaycan Beynəlxalq Ətraf Mühit Sərgisində bir şirkət həmin qurğuları nümayiş etdirir".

**R.Bağırov söyləyib ki, sakinlərin şikayətləri əsasında Neft Emalı Zavodunda da monitorinq aparılıb və atmosferə atılan tullantılar səbəbindən zavod cərimələnib:**

“Zavodun problemi odur ki, qurğuları çox köhnədir. Yeni qurğular quraşdırılarsa, atmosferə tullantılar atılmaz. Hazırda zavodda yenidənqurma işləri görülür. Müasir qurğular quraşdırıldıqdan sonra, yəqin ki, problem də olmaz”.

Ekologiya və Təbii Sərvətlə Nazirliyinin mətbuat xidmətinin rəhbəri **İradə İbrahimova**nın sözlərinə görə, bəzi restoranların bacasından çıxan tüstü havanı çox çirkləndirir və ətrafda yaşayan insanlara narahatlıq verir. Bu cür reydlərin əsas məqsədi isə bu restoranları cəzalandırmaq deyil, nəhayət ki, problemi aradan qaldırmaqdır. “Əgər məsələ ancaq cərimələrdə olsaydı, biz heç bir xəbərdarlıq etməzdik”, - İradə İbrahimova deyir.

**Onu da qeyd edək ki, əldə etdiyimiz məlumata görə, bəhs edilən qurğuların quraşdırılması 20-30 min manata başa gəlir.**

❑ **Ə.RAİS,**
**“Yeni Müsavat”**

# Bakıda velosipedə maraq var, şərait isə yoxdur...

## Mais Ağayev : “İlkin layihə olaraq təklif edirik ki, Bakı Olimpiya Stadionu, Koroğlu Nəqliyyat Mübadilə Mərkəzi və Atletlər Kəndini əlaqələndirən bir velosiped yolunun çəkilməsini təmin edək”

**Bakıda son zamanlar velosipedə maraq artıb. Lakin velosipedi sürəcək yol yoxdur. Velosiped sürənlər məcburiyyətdən magistral yola çıxırlar ki, bu da bəzi hallarda qəza ilə nəticələnir. Ekspertlər bildirirlər ki, qəzaların bir səbəbi yolların çəkilməməsi ilə bağlı olsa da, digər səbəb velosipedçilərin qaydalara əməl etməməsindən qaynaqlanır.**



Azərbaycanda gecə saatlarında magistral yolla hərəkət edən velosipedçilərin heç biri, işığı əks edən geyimlərdən istifadə etməyib, velosipedə işiği əks etdirən müvafiq nişanı vurmurlar.. Halbuki, xarici ölkələrdə bütü bunlar nəzərə alınır. Velosipedə işıq quraşdırmayan, qış aylarında təkəri dəyişməyən velosipedçilər cərimələnirlər. Təbii ki, xarici ölkələrdə velosiped yolları, nişanları mövcud olduğu kimi bu cür qaydalar da işləkdir. Azərbaycanda isə vəziyyət başqa cürdür...

Uzun müddətdir ki, Bakıda velosiped yolunun çəkilməsi məsələsi gündəmdə olsa da, hələ ki, bu xüsusda hazırlanan planlar kağız üzərində qalıb.

Bakı Nəqliyyat Agentliyinin mətbuat xidmətinin rəhbəri **Mais Ağayev** “Yeni Müsavat”a bildirib ki, məsələ ilə bağlı layihələri mövcuddur:

“Hələ ki layihə olaraq müzakirə edilib, ancaq tam reallaşmayıb. Agentliyin əsas hədəflərindən biri budur ki, alternativ nəqliyyat növlərini inkişaf etdirsin. O cümlədən də velosipedin real nəqliyyat növünə çevrilməsi üçün işlər aparılmalıdır. İlkin layihə olaraq təklif edirik ki, Bakı Olimpiya Stadionu, Koroğlu Nəqliyyat Mübadilə Mərkəzi və Atletlər Kəndini əlaqələndirən bir velosiped yolunun çəkilməsini təmin edək. Bununla bağlı layihə üzərində iş aparılır. Eləcə də yeni salınan yaşayış komplekslərinin nəqliyyat məsələləri layihələnən zaman da velosiped yollarına xüsusi diqqət yetirilir”.

Nəqliyyat üzrə ekspert **İlqar Hüseynov** “Yeni Müsavat”a bildirib ki, məsələ aktuallaşdığı üçün problem həll edilməlidir:

“Son zamanlar müşahidə edirik ki, gənclərin, orta yaşlı vətəndaşların velosipeddən istifadəsi artıb. Bəzi velosipedçilərimiz var ki, onlar həvəskar kimi velosipeddən istifadə etmək niyyətindədirlər. Həvəskarlar üçü Bakıda xüsusi meydançalar var. Onlar həmin meydançalara gedib, velosiped sürə bilərlər. Ancaq nəqliyyat vasitəsi kimi də Bakı şəhərində velosipeddən istifadəyə üstünlük verilməlidir. Bunun üçün xüsusi yollar ayrılmalı, velosipedçilərin istifadəsinə verilməlidir. Səkilərdə də velosiped yolu yaratmaq olar. Məsələn, ABŞ-da velosipedin ayrıca yolları var. Həmin yollardan yalnız velosipedçilər istifadə edirlər. Bu, magistral yolların kənarındadır. Daha çox təmasda olduğum Belçikanın paytaxtı Brüssel şəhərində bu yolları səkilərdə çəkirlər. Səkilərin üzərində xüsusi yerlər ayırırlar və burada yalnız velosipedçilər hərəkət edirlər. Piyadalar həmin yola çıxmırlar. Bu yollar fərqli rənglərlə digər yoldan ayrılır. Bakı şəhərinin özündə də elə yollar var ki, infrastruktur imkan verir ki, velosiped yolu da çəkilsin. Sadəcə, orada müəyyən zolağı ayırmaq lazımdır. Məsələn, yarımmetr zolaq ayrılır və müəyyən məsafədən bir yola velosiped şəkili çəkilir. Bütün vətəndaşlar da bilirlər ki, həmin yoldan velosipedçilər istifadə edirlər. Velosipedin maşın yolunu keçməsinə gəlincə isə bunu işıqforun köməkliyi ilə edə bilər. Bakının müxtəlif yerlərində, eləcə də mərkəzi küçələrində bu zolaqları çəkmək mümkündür. ABŞ-da nəqliyyat təhlükəsizliyi ilə bağlı təlim keçmişik. Bizim oradakı təlimdə bir günü velosiped hərəkətlərinə, şəhərdə bu nəqliyyat vasitəsinin idarə olunmasına həsr etmişdilər. Hətta orada şəhərin maketini hazırlayıb, məktəblilərə velosipedlərin hərəkəti ilə bağlı məlumatlar verirdilər. Bakıda da bunu təşkil etmək mümkündür. Müxtəlif yaş qrupundan olan insanlara, mini maket quraşdırılmış şəhərcikdə, velosipedin təhlükəsizlik baxımdan idarə olunması ilə bağlı təlimlər keçmək olar”.

❑ **ƏLİ,**
**“Yeni Müsavat”**

YENİ MÜSAVAT
N 244 (7133) 16 noyabr 2018

Azərbaycan Respublikasının Prezidenti yanında
Kütləvi İnformasiya Vasitələrinin İnkişafına
Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan,
Dağlıq Qarabağ münaqişəsi haqqında
həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması,
Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**

# Qarabağda böyük sülhü əngəlləyən əsas səbəb - "ikili standart" siyasəti

## Separatçı rejim başçısının növbəti Paris səfəri problemin həllində daha effektli formatların axtarışını zəruri edir; **erməni nəşri:** "Erməni əhali ac-yalavac ömür sürür..."

**Dağlıq Qarabağdakı separatçı rejimin başçısı Bako Saakyan başının dəstəsi ilə yenidən Parisə gedib. Saakyanın Fransaya hansı məqsədlə yollandığı, kim tərəfindən dəvət edildiyi barədə hələlik konkret bilgi yoxdur. Ancaq aydındır ki, erməni quldurbaşı ilk növbədə pul dilənmək üçün Parisə yollanıb. Fransada ən böyük erməni diasporunun olduğu nəzərə alınarsa, bu ehtimal kifayət qədər güclü görünər.**

Erməni tərəfi bununla şübhə yox ki, eyni zamanda, qanunsuz qurumun legitimliyinin heç olmasa, Fransa tərəfindən tanınmasına, guya dünyada ikinci bir erməni "dövləti"nin də mövcud olması haqda Avropada rəy yaratmağa çalışır. Ancaq məlumdur ki, Fransa ATƏT-in Minsk Qrupunun üç həmsədrindən biridir. Yəni Dağlıq Qarabağ məsələsində neytral, tərəfsiz mövqe tutmağa borcludur.

Təəssüf ki, Bako Saakyanın Fransaya gəlişi qərəzsiz vasitəçiliyə kölgə salır. Yəqin ki, bu dəfə də rəsmi Parisdən belə bəyanat eşidəcəyik ki, "Bako Saakyanın Paris səfəri rəsmi yox, özəl xarakter daşıyır". Ancaq bu, mahiyyəti dəyişirmi?

*Dəyişmir. Bako Saakyana kim viza verib? Əlbəttə ki, Fransa səfirliyi. O zaman abxaz, Krım, Dnestryanı bölgə, Donbas separatçılarının rəhbərlərinə niyə belə vizalar verilmir görəsən?*

**Sual ritorikdir:** "ikili standart" siyasəti. Bir daha qənaət hasil olur ki, ermənilər Fransa üçün xüsusi statusdadır. Fransa prezidentlərindən biri nahaq yerə işğalçı Ermənistanı "Fransanın kiçik bacısı" adlandırmayıb ki. Üstəgəl, xristian amili. Nəhayət, bu da məlumdur ki, aparıcı Qərb dövlətləri ermənilərə qardaş Türkiyəyə qarşı bir təzyiq, şantaj vasitəsi kimi baxır.

*****

Qarabağa dair sülh danışıqları onsuz da dalana dirənib. Bu yandan da separatçı rejim başçısının təxribatçı gedişi, daha dəqiqi, Fransa dövlətinin ona qucaq açması təəssüf doğurmaqla yanaşı, kövrək sülh prosesinə növbəti bir zərbəni vurur.

"Yeni Müsavat" xatırladır ki, az öncə Fransanın iki şəhərinin meri işğal altındakı Dağlıq Qarabağa səfər eləmişdi. Bununla bağlı, Azərbaycan Xarici İşlər Nazirliyinin (XİN) sərt bəyanatı oldu, Fransa səfiri XİN-ə çağırıldı. Ümid eləmək olardı ki, rəsmi Paris bundan nəticə çıxaracaq. Ancaq əksi oldu. Üstündən çox keçməmiş quldurbaşı Bako Saakyan Fransaya getdi.

**Bu arada isə avropalı investorların Azərbaycanın işğal altındakı Sərsəng su anbarı yaxınlığında tikiləcək yeni anbar üçün 100 milyon dollar pul ayırması barədə xəbər yayılıb.** Xəbər öz təsdiqini taparsa, o zaman bu, bir daha Avropanın Qarabağ məsələsində, işğal məsələsinə yanaşmada "ikili standart" siyasətini təsdiqləmiş olacaq...



*****

**Son hadisələr Minsk Qrupu həmsədrliyinin Dağlıq Qarabağ ixtilafının həllində "dişsiz" bir format olduğunu ortaya çıxarır.** Konfliktin həllində daha effektli formatların axtarışını zəruri edir. Ancaq yeni format necə olur-olsun, orada Türkiyənin iştirakı olmayacaqsa, nəticə olmayacaq. Çünki nizamlama prosesində münaqişə tərəfləri arasında balansın gözlənilməsi olduqca vacibdir. Yaxud Minsk Qrupu həmsədrliyində ermənipərəst Fransanı qardaş Türkiyə əvəzləyərsə, o halda balansın təmin edildiyini söyləmək mümkün olacaq.

Saakyanın Parisə səfərinə gəlincə, artıq qeyd edildiyi kimi, əsas məqsədin pul dilənmək olduğu şübhə doğurmur. Bunun da səbəbi separatçı bölgədəki olan-qalan əhalinin də ağır durumda olmasıdır. Qarabağda sosial-iqtisadi vəziyyət gündən-günə daha da gərginləşir. Qondarma rejimdən bezmiş sakinlər Ermənistanın baş nazir əvəzi Nikol Paşinyanı "küt və axmaq" adlandırmaqdan belə çəkinmirlər.




Bunu təkcə biz demirik. Ermənistanın "İrates" qəzetində yerləşdirilmiş yazıda belə deyilir (teleqraf.com). Qeyd olunur ki, əhali acınacaqlı həyat keçirir. İş o yerə çatıb ki, münbit torpağı olan bu yerdə insanlar hətta, kənd təsərrüfatı məhsullarının təminatı baxımından da korluq çəkirlər: "Çünki onlara əkib-becərmək üçün lazımi şərait yaradılmır, səlahiyyət sahibləri soyub-talamaqla, öz sərvətlərini artırmaqla və intriqalarla məşğuldurlar. Bako Saakyan (qondarma rejimin "prezidenti" - red.) bölgədə bütün sahələrin inkişaf etdiyini və əhalinin hər şeydən razı olduğuna deməklə Nikol Paşinyanı dəfələrlə aldadıb, ona yalan məlumatlar verib. Əslində Saakyan və onun komandası milyonlara sahib olur. Əhali isə iş tapmır, ac-yalavac ömür sürür. Qadınlar şəxsiyyətləri alçaldılan "istirahət evlərinə", kişilər qul kimi təhqiramiz işlərə sövq edilirlər. Bu ilin yazında Stepanakertdə (Xankəndi - red.) baş verən ciddi narazılıqlar bunu sübut etdi. Etiraz aksiyasının bir çox iştirakçıları respublikanın (qondarma rejimin - red.) vəzifəli şəxslərinin onları döydürüb təhqir etdiklərini, özbaşınalığın və zorakılığın dözülməz həddə çatdığını, hətta Azərbaycan Ordusunun gəlişini istədiklərini açıqca bildirdilər".

**Yazıda o da qeyd olunur ki, N.Paşinyanın "Qarabağ klanı"na yumşaq desək, xoş olmayan münasibəti, İrəvanda vəzifəli qarabağlıları sıxışdırması, "Dağlıq Qarabağ xalqı"na hörmətlə yanaşmaması bölgədə ona inamsızlığı artırmaqla yekunlaşmayıb, həmçinin, nüfuzdan düşməsinə gətirib çıxarıb.** "Məhz bu səbəblərdən Qarabağ erməniləri ilə Ermənistan erməniləri arasında yaranmış uçurum daha da dərinləşərək, ən yüksək həddə çatıb. Yaxın vaxtlarda Qarabağ erməniləri ilə Ermənistan erməniləri arasında gərginliyin daha da böyüyərək münaqişə yaşanması gözləniləndir", - deyə məqalənin sonunda qeyd olunur.

*****

**Bu qarşıdurma olsa da, olmasa da, bir şey dəqiqdir ki, ermənilər Dağlıq Qarabağ məsələsində daşı ətəklərindən töküb haqqa gəlməyincə, işğal elədikləri torpaqları öz halla sahibinə qaytarmayınca, Ermənistan iki əsas qonşusu - Azərbaycan və Türkiyə ilə anlaşmayınca, onların iztirabları bitməyəcək. Əksinə, özlərinin də etiraf elədikləri kimi, daha da şiddətlənəcək. Necə deyərlər, seçim həmişəki kimi, öz əllərindədir...**



# Qarabağda maşın dərəyə yuvarlandı - 3 erməni öldü

**Azərbaycanın işğal altındakı Dağlıq Qarabağ bölgəsində baş verən avtomobil qəzasında 3 erməni ölüb. Bu barədə Ermənistanın Shamshyan.com saytı informasiya yayıb. Hadisə zamanı "Opel" markalı avtomobil 300 metrlik yüksəklikdən dərəyə yuvarlanıb. Nəticədə sərnişinlər - Gümrü sakini 57 yaşlı Varazdat Manukyan və Panik kənd sakini 33 yaşlı Andranik Şaqinyan hadisə yerindəcə keçinib. Sürücü 53 yaşlı David Vanyan isə xəstəxanaya aparılarkən yolda ölüb.**

Qeyd edək ki, qəza işğal altındakı Ağdərə rayonu ərazisində baş verib.

# Əhalinin qazla təminatı axsayır - "Azəriqaz" isə "hər şey yaxşıdı" deyir

## Sumqayıt, Xırdalan və Bakıətrafı qəsəbələrdə havalar soyuyan kimi təbii qazın verilməsində azalma olur; kənd rayonlarında isə əhali odun yandırır

**Havaların bir qədər soyuqlaşması Azərbaycanda qaz təchizatı ilə bağlı məsələni yenidən aktuallaşdırıb. Artıq bir neçə gündür sosial şəbəkələrdə qazın təzyiqinin aşağı olması ilə bağlı müzakirələr başlanıb. Müzakirələrdən aydın olur ki, Sumqayıt və Xırdalan şəhərləri, Sumqayıt və Bakı ətrafındakı yaşayış məntəqələrindən narazılıq daha çoxdur. İnsanlar qazın təzyiqinin artırılması üçün qış rejiminə keçidin gözləndiyini, buna görə evlərdə qazın zəif yandığını bildirirlər.**



"Azəriqaz" İstehsalat Birliyinin İctimaiyyətlə əlaqələr şöbəsinin müdiri **İbrahim Kərbəlayev** "Yeni Müsavat"a deyib ki, qurum qış rejiminə keçidi gözləmir: "Deyirsiniz, sosial şəbəkələrdə müzakirələr, narazılıqlar var. Orada narazılıq edən şəxslər müraciət etsinlər Birliyin qaynar xəttinə, qeydiyyatdan keçsinlər, bizim əməkdaşlarımız gedib yerində yoxlasınlar vəziyyəti. Sosial şəbəkədə yazmaqdansa, bu addımları atsınlar və əgər qaz təchizatında problem varsa, onun aradan qaldırılmasına çalışsınlar. Bunun qaydası budur".

**"Azəriqaz" İB-nin rəsmisi qeyd edir ki, qaz təchizatı ilə bağlı kütləvi narazılıq yoxdur**: "Ayrı-ayrı fərdi qaydada narazılıqlar varsa, onların da həlli yolunu mən dedim. Bu gün ölkənin qazla yüksək səviyyədə təchizatı üçün bütün imkanlar var. Buna görə də biz havalar soyuyub, tələbat artan kimi şəbəkəyə verilən qazı da artırırıq. Təkcə dünəndən bu günə ölkə üzrə qaz verilişini 661 min kubmetr artırmışıq. "Azəriqaz" İstehsalat Birliyi qazla təchizatı tələbata uyğun həyata keçirir, yay-qış rejimi şərti məsələdir. Yay aylarında ölkə üzrə gündəlik sərfiyyat 5-10 milyon kubmetr olursa, qışda bu göstərici 30 milyon kubmetri keçir".

Maraqlıdır ki, İ.Kərbəlayev "Azərtac"a xeyli fərqli açıqlama verib. Onun rəsmi informasiya agentliyinə dediyinə görə, qış rejiminə keçidlə əlaqədar noyabrın 15-dən etibarən "Azəriqaz" İB əhali sektoru üzrə sutkalıq təbii qaz sərfiyyatını 1 milyon 664 min kubmetr artırıb: "Hazırda respublikada əhali sektoru üzrə gündəlik təbii qaz sərfiyyatı 22 milyon 632 min kubmetrdir ki, bunun da 13 milyon 19 min kubmetri Bakı, 9 milyon 613 min kubmetri isə regionların payına düşür". "Azəriqaz" rəsmisi əlavə edib ki, hazırda qurum ölkə üzrə 2 milyon 164 min 319 abonenti fasiləsiz təbii qazla təmin edir: "Qarşıdakı günlərdə əhalinin təbii qaza olan tələbatı artdıqca "mavi yanacaq"ın verilişində də artım olacaq".

Qeyd edək ki, qış rejiminə keçidin başlanmasından sonra da Sumqayıt və Xırdalan ərazisində qazın təzyiqində ciddi bir artım qeydə alınmayıb.

Rəsmi statistikaya görə, bu ilin 9 ayında ölkədə təbii qazın hasilatında artım qeydə alınıb. Belə ki, yanvar-sentyabr aylarında Azərbaycanda 22 milyard 246,7 milyon kubmetr qaz hasil edilib ki, bu da ötən ilin eyni dövründən 5,5 faiz çoxdur. Hasil olunan qazın 13 milyard 833,8 milyon kubmetri əmtəəlik olub. Dövlət Gömrük Komitəsinin məlumatına əsasən qeyd olunan dövrdə Azərbaycandan xaricə 5 milyard 262 743.40 min kubmetr qaz satılıb.

Daxili istehsalla yanaşı, Azərbaycan 2017-ci ilin noyabrından Rusiyadan da qaz alır. Bununla bağlı müqavilə ötən ilin noyabrında SOCAR-la "Qazprom" arasında imzalanıb. Müqaviləyə əsasən bu ilin sonunadək Azərbaycan Rusiyadan 1,6 milyard kubmetr qaz almalıdır. Ötən il bunun 349 milyon kubmetri, bu il isə 900 milyon kubmetrdən çoxu idxal olunub. SOCAR-dan verilən açıqlamaya görə, ilin sonunadək müqavilədə nəzərdə tutulan həcmin tədarük edilməsi mümkündür.

2016-cı ildən etibarən Azərbaycan İran üzərindən Türkmənistandan da qaz alır. Rəsmilər Rusiya və Türkmənistandan qazın daxili tələbatı ödəmək üçün alındığını bildirirlər. Bəzi məlumatlara görə, bu ilin 8 ayı ərzində Türkmənistandan 700 milyon kubmetr qaz alınıb.

Artıq 3 ildir Azərbaycan Türkiyə və Gürcüstana qaz ixracına dair müqavilələrini vaxtında icra etmək üçün əlavə qaz həcmlərinə ehtiyac duyur. Məsələn, bu ilin əvvəlindən etibarən Gürcüstan bütünlüklə Azərbaycan qazı ilə təmin olunur. Bu barədə razılaşma ötən ilin sonlarında əldə olunub. Buna görə də daxili tələbatın bir hissəsi xaricdən alınan qaz hesabına təmin edilir. Bu alqı-satqı nəticəsində SOCAR-ın üzləşdiyi zərər isə dövlət büdcəsi hesabına örtülür. Belə ki, xaricdən alınan qaz daxildəki istehlakçılara satış qiymətindən baha başa gəlir. 2016-cı ildə SOCAR-ın üzləşdiyi zərəri qarşılamaq üçün 2017-ci ilin büdcəsindən 250 milyon manat ayrılıb. 2018-ci ildə isə enerji istehsalı müəssisələrinə ucuz satılan qaza görə SOCAR-a büdcədən 300 milyon manat veriləcəyi nəzərdə tutulur.

Qeyd olunanlar göstərir ki, reallıqda Azərbaycan əhalisini qazla təmin etmək sahəsində ciddi bir problem olmamalıdır. Hətta xaricdən almaqla da olsa, dövlətin verdiyi dəstək sayəsində qışın soyuğunda insanları şam alovuna möhtac qoymamaq olar.

**Çox təəssüf ki, "Azəriqaz" rəsmiləri əhalinin qazın azlığından əziyyət çəkməsini heç vaxt etiraf etmirlər.** Belə ki, bu etirafın arxasından problemin səbəblərinin izahı, əsaslandırması gəlməlidir. Əhali bilməlidir ki, soyuq havalarda pulunu ödədiyi halda niyə keyfiyyətli qaz təchizatı əldə edə bilmir?

Bölgələrdən redaksiyamıza edilən şikayətlərdə isə bildirilir ki, əhali əksər kənd və qəsəbələrdə *(hansı ki onlar sənəddə qazlaşdırılıb - D.S.)* odun sobalarından istifadə edirlər.

**Mövzunu davam etdirəcəyik.**

**❑ Dünya SAKİT, "Yeni Müsavat"**

# Rəsmi qurum ekoloqun sərt qış proqnozunu təsdiq etmədi

## Nazirlik: "Hələ məlum deyil ki, qış aylarında temperatur necə olacaq"

**Azərbaycanda bu il qışın çox sərt keçəcəyi ilə bağlı şərhlər verilir. Belə ki, ekoloq Telman Zeynalov oxu.az saytına bildirib ki, artıq indidən müvafiq qurumlar Azərbaycanda sərt qışa hazırlaşmalıdırlar.**

Onun sözlərinə görə, bundan sonra qış gözləniləndən tez gəlib, gec gedəcək:

"Günəş qeyri-adi və ləng yuxu dövrünə girir. Yeni günəş minimumu yeni kiçik buz dövrünün başlanmasına səbəb ola bilər. Bəşəriyyət XVII əsrdə belə qışla üzləşib", - deyə ekoloq qeyd edib.

Telman Zeynalov qeyd edib ki, son illər Günəş ləkələrinin sayında azalma müşahidə olunur (Günəş ləkələri maqnit enerjisi ehtiyatlarını xarakterizə edir, daha dəqiq desək, Günəş ləkələri Günəşdəki partlayışların enerjiyə çevrilməsi nəticəsində yaranmış ehtiyatlardır).

"Günəş tacının qütblərində tüğyan edən qasırğalar zəifləyir, Günəşdəki reaktiv axıntılar yoxa çıxır. Bu, onu göstərir ki, Günəşin daha az aktivlik dövrü başlayır. Bütün bunlar bu qışdan etibarən özünü göstərməyə başlayacaq", - deyə ekspert bildirib.



**Ekoloq Azərbaycan paytaxtında gözlənilən qış barəsində belə proqnoz verib:** "110 illik meteoroloji müşahidələr onu göstərir ki, Bakıda qışda ən aşağı temperatur 1969-cu ildə qeydə alınıb ki, həmin vaxt mənfi 10 dərəcə şaxta olub. Düzdür, 2012-ci ildə Bakıda 11 dərəcə şaxta olması barədə məlumatlar var, lakin rəsmi versiyaya görə, rekord göstərici 1969-cu ilə aiddir. Bu il isə 8-9 dərəcə şaxta gözlənilir. 2020-ci ildə Bakıda soyuq temperatur üzrə yeni rekord qeydə alınacaq", - deyə ekoloq vurğulayıb.

Məsələ ilə bağlı daha dəqiq məlumat almaq üçün Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentinin Hidrometeoroloji Proqnozlar Bürosu ilə əlaqə saxladıq. Bürodan "Yeni Müsavat" bildirildi ki, indidən qışın necə keçəcəyini söyləmək mümkün deyil:

"İndidən qışın sərt keçəcəyini söyləmək qeyri-ciddilik olar. Çünki hələ məlum deyil ki, qış aylarında temperatur necə olacaq. Telman Zeynalov ötən il də qışın sərt keçəcəyini bildirmişdi. Lakin bu, baş vermədi. Dekabr ayı üçün noyabr ayının 3-cü ongünlüyündə məlumat olacaq. Yəni 20-dən sonra biz nə isə deyə bilərik ki, dekabr ayı necə keçəcək. Nə isə proses gözlənilən zaman biz şərhlərimizi deyirik. Məsələn, noyabrın 19-dan sonra havada müəyyən dəyişiklik gözlənilir. Temperatur bir qədər aşağı enəcək, yağıntılar olacaq. Hər proseslər tərəfimizdən 2-3 gün öncədən şərh edilir. Noyabr ayının proqnozu belədir ki, bu ayda havanın orta aylıq temperaturunun iqlim normasına yaxın, bəzi yerlərdə isə bir qədər yüksək olacağı gözlənilir.

Aylıq yağıntının miqdarının iqlim normasına yaxın olacağı ehtimal olunur.

Noyabr ayının birinci ongünlüyünün birinci yarısında hava şəraitinin nisbətən mülayim keçəcəyi qeyd edilmişdi.

Bakıda və Abşeron yarımadasında orta aylıq temperaturun 10-13 dərəcə isti (gecələr 8-13, gündüzlər 15-20, üçüncü ongünlüyün bəzi günlərində 8-11 dərəcə isti) olacağı gözlənilir ki, bu da iqlim normasından bir qədər yüksəkdir.

**Aylıq yağıntının miqdarının iqlim normasına yaxın (norma 28-38 mm) olacağı gözlənilir.**

**❑ Əli RAİS, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 244 (7133) 16 noyabr 2018




# "Yaxın", yoxsa "alçaq"? Tərəqqi - düzgün cavabdadır

Hacı İlqar İBRAHİMOĞLU, ibrahimoglu@gmail.com
İlahiyyatçı-filosof, İçərişəhər Cümə məscidinin imam-camaatı



**Cümə söhbətləri**

**Bismilləhir-Rahmənir-Rahim!**
**Hər bir insan fitrətən yaxşı əməlе can atır. Bu, ayrı mövzudur ki, yaxşı əməl deyildikdə nə başa düşülür. Ayrı-ayrı düşüncələrdə olan insanlar ola bilər ki, yaxşı əməli fərqli başa düşsün. Amma hər kəs yaxşı bildiyi əmələ can atır. Bu, insanda olan bir fitri mövzudur.**

Bu fitridirsə, bizdən asılı deyil, insanın içərisindədir. Amma bizim onu necə istifadə etməyimiz - bir ayrı mövzudur. İslam dünyagörüşünə görə, yaxşı əməl mütləq şəkildə iki tərkibə malik olmalıdır. Bir tərəfdən məzmun və forması yaxşı olmalıdır, ikinci tərəfdən isə əməli yerinə yetirənin niyyəti yaxşı olmalıdır.

Ötən bəhslərimizdə bu mövzularda geniş danışmışıq. İnsanın niyyəti imana bağlıdır. Əgər insanın imanı diri olsa, yaxşı niyyəti də mövcud olacaq. Əgər imanımız diri olmasa, imanımızda qəflət etsək, yaxşı niyyətimizin olması mümkün deyil.

Onu da qeyd etdik ki, imanın diri olmasının da iki əsas bünövrəsi var: mərifət və məhəbbət. Biz gərək iman gətiriləcək mövzuları tanıyaq. Və bu tanımadan irəli gələrək, həmin mövzuları həyata keçirməyə şövqümüz olsun, məhəbbət göstərək. Bu ikisi birlikdə olanda iman meydana gəlir. Möminlərin, namaz qılanların əsas çətinliyi bundadır: həm məlumatı var, bilir, həm istəyi və əzmi var, istəyir - amma alınmır.

## İmanın diri olmasına mane olan amil - dünyapərəstlik

Bizim mənəvi təkamülümüzə, imanımızın diri olmasına, niyyətimizin Allah bəyənən olmasına mane olan bir neçə amil vardır. Ötən bəhslərimizdə bunlara da ayrılıqda toxunmuşuq. Qeyd etdik ki, bunlardan biri - həvayi-nəfsdir. Digər biri şeytanın (lən) vəsvəsələridir. İnsanın imanının diri olmasına mane olan ciddi amillərdən biri də dünyaya vurğunluq, dünyapərəstlikdir.

Dünyapərəstlik mövzusunda danışmazdan öncə, gərək aydınlaşdıraq ki, dünya nədir və İslamda dünyaya baxış necədir? Bu gün müsəlman toplumunun, İslam dünyasının geri qalma səbəblərindən biri - dünyaya baxışının düzgün olmaması ilə bağlıdır. Görsənən budur ki, hansısa mərhələdə müsəlman toplumuna, İslam mədəniyyətinə, İslam sivilizasiyasına dünya ilə bağlı təsəvvürü yanlış kodlaşdırıblar, öz həqiqi mənasından ayırıblar.

İlk olaraq qeyd etməliyik ki, dilimizdə istifadə olunan "dünya" sözünün, "müsəlman dünyası", "Qərb dünyası", "Şərq dünyası" ifadələrində işlənən "dünya" kəlməsinin əxlaqi kontekstdə nəzərdə tutulan mövzuya tam aidiyyatı yoxdur. Bu söz bizim dilimizə daxil olub, bəzən fərqli mənada çalarlar əlavə edilərək, ictimai, siyasi, geopolitik anlamda da həmin fərqli mənada istifadə edilib. Yəni, bizim bu gün dilimizdə istifadə etdiyimiz "dünya" kəlməsinin dünyapərəstlik mövzusu ilə hər zaman tam əlaqəsi yoxdur.

## "Dünya" sözünün lüğətdə mənası

İkinci tərəfdən "dünya həyatı" sözü də bizim dilimizdə səhv istifadə olunur. Çünki dünya sözü Quranda və İslami mətnlərdə özü sifətdir və sifət olan yerdə gərək isim olsun. Dünya sözünün isminin iki haldan kənar istifadəsi görsənməyib. İslam mətnlərində, əxlaqi mənbələrdə, Quranda, hədislərdə iki söz gəlib: "həyat" və "dar" sözləri. Harada dünya bu sözlərlə gəlibsə, bunların yanında "axirət" sözü də gəlib. "Axirət" sözü də sifətdir və onun ismi "həyat"dır.

Deməli, belə başa düşülür ki, başlanğıcda istifadə olunmuş "yaxın həyat" (dünya həyatı) və "sonrakı həyat" (axirət həyatı) kəlmələrindən sonradan "həyat" sözü yığışıb və "yaxın" sözünün ərəbcəsi olan "dünya" sözü istifadə olunmağa başlayıb. Digər kəlmədə də "sonrakı" mənasını verən "axirət" sözü qalıb. Ona görə də bizim dilimizdə əxlaqi kontekstdə dünya sözünün isim mənasında işlədilməsi yanlışdır. Bu mənada əxlaq mütəxəssisləri insana tərif verəndə belə verirlər ki, insan iki həyatlı bir varlıqdır. Bunlardan biri yaxın, digəri qəbirdən sonra olan həyatdır.

"Dünya" sözü ərəbcə qadın cinsindədir. Bunun kişi cinsində forması "ədna"dır. Bunlar iki kökə qaytarıla bilər. Bir kökü - "yaxın", digər kökü - "alçaq" mənasındadır. Əxlaq mütəxəssisləri bildirirlər ki, axirətlə (növbəti) dünya (yaxın) yanaşı gəldiyi üçün alçaq anlamını daşımır. O tərcümə və o təqdimat yanlışdır.

## Müsəlman toplumları, dünya həyatını səhv anlama səbəbindən geri qalıb

Hansısa mərhələdə müsəlman toplumunun düşüncəsinin içərisində salınıb ki, bu, "alçaq" və "aşağı" mənasındadır. Belə olduqca insan ondan nə qədər uzaq dursa, bir o qədər yaxşıdır. Dolayısı ilə tərki-dünyalıq mövzusu gündəmə gəlib və mümkünsüzlük yaranıb. Yəni insanlar düşünüb ki, bu, pis olsa da belə, ondan uzaq durmaq mümkün deyil, hər gün bunun içərisində yaşayır. Bir tərəfdən deyir ki, bu, pisdir, digər tərəfdən də ən zəruri həyat məsələlərini həyata keçirməlidir. Heç cür imtina edə bilmir.

Digər tərəfdən, əgər dünya pis olsa, o zaman Ay, Günəş, ulduzlar, su, ağac, təbiət də pisdir? Bunlar - Allahın ən gözəl nemətləridir. Bunlar necə pis ola bilər? Dünyanın içərisində bunlar da var. Burada birinci diqqət olunası məsələ budur ki, "dünya" sözünü sifət olaraq dəyərləndirməliyik və mənasını da "yaxın" olaraq götürməliyik. Deməli bir yaxın həyat, yəni dünya həyatı və bir də sonrakı həyat - axirət həyatı var. Dünyanın öz-özlüyündə pis olması kimi mövzumuz yoxdur. Bu yaxın həyatla necə davranacağıq, necə bəhrələnəcəyiksə ona uyğun olaraq yaxşı və ya pis olacaq. Kompyuter öz-özlüyündə yaxşı və ya pis ola bilməz. İnternet öz-özlüyündə yaxşı və ya pis ola bilməz. Şəhər öz-özlüyündə yaxşı və ya pis ola bilməz və s. Bunlar necə və nə üçün istifadəsinə görə yaxşı və ya pis ola bilər.

## Fəlsəfi anlamda dünya bir xeyirdir

Fəlsəfi baxışla yanaşsaq, dünya öz-özlüyündə bir xeyirdir. Dünya - Allahın yaratdığı digər nemətlər kimi xeyirdir. Allahın yaratdığı nemətlər də bu dünyanın içərisindədir. Əxlaqi baxışla baxdıqda, dünya həm xeyir, həm də şər ola bilər. Əgər biz doğru istifadə etsək - dünya bir xeyir olacaq, əgər yalnış istifadə etsək - mənfi olacaq. Bizim dünya ilə bağlı davranışımız iradəvi olduğu üçün həm xeyir, həm də şər ola bilər.

Rəbbimiz "Səcdə" surəsinin 7-ci ayəsində bizlərə yaradılış aləmində hər şeyin ən gözəl, ən ali tərzdə olduğunu çatdırır. Ayədə buyurulur: "O, yaratdığı hər şeyi gözəl yaratmışdır (onun üzvlərini bir-birinə və bütünlükdə isə onu yaradılış məqsədinə mütənasib etmişdir) və insanın yaradılışına palçıqdan başladı (insanların ulu baba və nənəsini birbaşa olaraq, möcüzəli tərzdə palçıqdan yaratmışdır)". Bir bu ayə yetərlidir biz deyək ki, yaradılış aləmində, dünya adına nə varsa, nə yaradılıbsa - ən ali şəkildə, ən gözəl şəkildə yaradılıb. Bunun da ən yaxşı nümunəsi, ən əsas misalı - insandır.

## Quranda hər şeyin ən gözəl şəkildə yaradılması çatdırılır

Ayədən çıxarılacaq təfsiri nöqtələrdən biri budur ki, Allah Təala bütün yaratdıqlarını gözəl yaratdığını bəyan edir. Deməli, varlıq aləmində yaradılmış hər bir şeyi Rəbbimiz ən gözəl şəkildə, ən üstün şəkildə yaradıb.

Diqqət edilməli ikinci mühüm məsələ budur ki, Allahın gözəl şəkildə yaratması, Allahın ən gözəl idarə edən olmasından qaynaqlanır. Öncəki ayədə Allah Təalanın işləri, sifətləri təqdim olunanda, Allahın idarə etməsi bəyan olunanda ardınca ən gözəl şəkildə vurğusunun gəlməsi, Allahın idarə etməsinin ən gözəl şəkildə olmasına işarədir. Bu idarəetmənin özü də Allahın elminin nəticəsidir. Biz deyə bilərik ki, bu gözəl yaradılış əslində Allahın ayələrinin nişanələrinin təzahürüdür.

Digər təfsiri nöqtələrə diqqət etdikdə biz görürük ki, bu ayədən anlaşılan budur ki, varlıq aləmində yaradılışdan sonra meydana gələn eybəcirliklərin, yanlışların heç birinin Allaha aidiyyəti yoxdur. Bunlar insanların, yaranmışların mahiyyət etibarilə gətirib çıxartdığı vəziyyətdir, bizim yaranmışlarla olan münasibətlərimiz zamanı yaranan eybəcərliklərdir.

Ayədə insanın yaradılışı da yaradılışın ən xüsusi bir çaları kimi təqdim olunur və bu yaradılış, gözəl yaradılışın bariz nümunəsi kimi təqdim edilir. İnsanın palçıqdan yaradılışı göstəricidir ki, insan da ən ali, gözəl şəkildə yaradılmışdır. Bu, həm də Həzrət Adəmin (ə) palçıqdan yaradılmasına işarədir. Bunu da əlaqələndirmək olar ki, insanın yaradılmasından əvvəl torpaq və su mövcud olub. İnsan bu torpaqla suyun birləşməsindən yaranıb.

Bu ayəni ona görə diqqətə çatdırdıq ki, Allah Təala yaradılış aləminin, eləcə də bu dünya həyatının ən gözəl şəkildə yaradılmasını bizlərə çatdırır. Bu mənada dünya sözünün bəzən aşağılayıcı, tərki-dünyalığa apara biləcək mənasının yanlışlığı üzə çıxmış olur. Buna görə də, dünya öz-özlüyündə Allahın yaratdığıdır və bir xeyirdir. Bizim bu dünya ilə davranışımızın necəliyinə görə nəticədə yaxşı və ya pis ola bilər.

## Ağıllı insan axirətini dünyasına satmayandır

Həzrət Əli (ə) buyurur: "Aqil o kəsdir ki, həvayi-nəfsinə qələbə çala və axirətini dünyaya satmaya". İnancımıza görə, ağıl sahibi olan insan, düşüncə sahibi olan insan o kəsdir ki, bilgilərini düzgün nəticələndirə bilir, savadını düzgün istifadə edə bilir və bu nəticəyə gəlir ki, öz həvayi-nəfsinə, instinktlərinə tabe olmasın, tabe olarsa artıq ağılın təsiri aradan gedər. Həmin kəs başa düşə bilər ki, iki həyatı var - biri indi, hal-hazırda yaşadığımız, digəri növbəti həyatdır. Ağıllı insan o insandır ki, əbədi həyatını bu dünyaya satmasın. Bilər ki, bu dünyada nə edirsə, əbədi həyatı üçün edir.

Həzrət İmam Sadiq (ə) buyurur: "Bu gün dünyada bir iş gör ki, onun vasitəsilə axirətdə fövzə çatmağa ümidli olasan". Həzrət İmam Sadiq (ə) bizi bu an doğru-dürüst davranmağa dəvət edir, keçmişdə qalmamağa, gələcəyin arzularında qalmamağa çağırır və bu gün, bu an üçün hərəkətə keçməyə çağırır.

İmam (ə) öyrədir ki, axirətdə səadətə çatmağın yolu elə bu an bu dünyada bir işlər görməkdən keçir. Bu anlamda əslində dünya həyatı - insanın aqibəti, əbədi səadətinə aparan ən gözəl vasitədir. Bu cür gözəl vasitə necə mənfi ola bilər? O cür ki, biz bu vasitədən düzgün istifadə etmərik. Əgər doğru istifadə etsək, aqibətimiz üçün ümidin yaranmasında böyük vasitəyə çevrilə bilər.

## Dünyapərəstlik və Allahpərəstlik bir yerdə ola bilməz

Bizim həyatımızda iki cür vəziyyət var. Biz dünyapərəst və ya Allahpərəst ola bilərik. Həzrət Rəsulallah (s) bizə çatdırır ki, bu ikisi heç zaman bir qəlbdə cəm ola bilməz. İnsanın bir qəlbi var və o qəlbdə bu ikisindən biri olacaq: ya dünyapərəstlik olacaq, ya da Allahpərəstlik. Bunların eyni vaxtda bir qəlbdə cəmlənməsi mümkün deyil. Bunlar bir-birinə zidd olan, bir-birinin qarşısında dayanan, bir-birinə hər mənada paradoksal vəziyyətdə olan iki fərqli anlayışlardır.

Əgər biz dünya vurğunu olsaq, əmin olmalıyıq ki, qəlbimizdə Allahpərəstlikdən əsər-əlamət qalmayacaq. Əgər Allahpərəst olmaq istəyiriksə, bilməliyik ki, bu, dünyapərəstliklə birlikdə ola bilməz. Biz bu dünyada özümüzü dünyapərəstliklə məşğul edəndə, qəlbimizdə Allahpərəstlikdən əsər qalmır.

**İslam - Allahpərəstlikdir.** Həzrət Rəsulallah (ə) buyurur: "Dünyapərəstlik və Allahpərəstlik - bu ikisi heç zaman bir qəlbdə cəm ola bilməz". Bizlər dünyapərəstlik deyəndə heç də qeyri-adi məsələləri təsəvvür etməyək. Gündəlik həyatımız harada bizi qəflətə salır və özünə məşğul edirsə, orada bizdə dünyapərəstlik qalib gəlir. Bir gün övlad, digər gün ailə, maşın, ev, məqam və s. ola bilər. Dünya həyatının hər hansı bir təzahürü bizi özünə cəlb edirsə, özünə bağlayırsa - bizi dünyapərəstliyə aparmış olur.

**Allahım, bizlərə yalnız Sənə pərəstiş etməyi, dünyapərəstlikdən uzaq olmağı nəsib et!**

**Allahım, bizləri dünyamızı axirət üçün yaşayanlardan qərar ver!**

**Allahım, bizlərə bu dünyada yaxşı işlər görüb, axirət səadətinə çatmağı nəsib et! Amin!**

**İrlandiyanın aviasiya idarəsi ölkənin cənub-qərbində parlaq işıq saçan naməlum uçan obyektlərin müşahidə edilməsi ilə bağlı faktları araşdırır. Virtualaz.org BBC-yə istinadən xəbər verir ki, noyabrın 9-da yerli vaxtla saat 6:47-də "British Airways" aviaşirkətinin sərnişin təyyarəsinin pilotu Şannon hava limanının hava hərəkətinin idarə edilməsi qurumu ilə əlaqə saxlayaraq, təyyarənin yerləşdiyi hava məkanının yaxınlığında hər hansı hərbi təlimlərin keçirilib-keçirilmədiyini xəbər alıb. Belə ki, o, havada "çox sürətlə hərəkət edən" cisimlər görüb.**

# Yadplanetliləri pilotlar görürsə...

## Bir-birindən ilginc təyyarə-uno qarşılaşması...



Cavab mənfi olub. Pilota bildiriblər ki, yaxınlıqda heç bir hərbi təlim keçirilmir.

Monrealdan Londona uçan təyyarənin pilotu dispetçerə deyib ki, ekipaj çox parlaq işıq müşahidə edir, sol tərəfdən isə gözlənilmədən naməlum obyekt peyda olub və o, kəskin sürətlə şimala tərəf yönəlib.

Pilot əlavə edib ki, onların nə baş verməsi ilə bağlı heç bir mülahizələri yoxdur, lakin bir şey aydındır ki, naməlum obyektin məqsədi təyyarə ilə toqquşmaq deyildi.

"Virgin Airlines" aviaşirkətinin təyyarəsinin pilotu isə ehtimal edir ki, bu, Yer atmosferinin sıx qatlarına daxil olan meteor və ya digər obyekt ola bilərdi.

Onun sözlərinə görə, həmin vaxt eyni trayektoriya üzrə daha bir neçə parlaq obyekt hərəkət edib.

9 noyabr tarixində birdən-birə bir neçə təyyarənin ekipajından oxşar xəbərlər alan yerli aviasiya idarəsi hesabat hazırlayıb və "məxfi hadisə araşdırılması" rejimində baş verənlərin təfərrüatlarını öyrənir.

Qeyd edək ki, bu günlərdə yayılan digər xəbərlərə görə, son vaxtlar Yer planetinin ən müxtəlif hissələrində bu cür hadisələrin sayı hədsiz artıb. Naməlum obyektlərin daha sıx göründüyü və onların eniş etmə ehtimalının olduğu azsaylı məkanlardan biri kimi Azərbaycanın da adı çəkilir.

### Pilotların uno hekayələri - onlar təyyarələri necə izləyib?

"Yeni Müsavat" bu hadisədən çıxış edərək bu günə qədər pilotlar tərəfindən görülən bu sayaq hadisələr barədə bir arayış hazırlayıb. Türk Hava Yollarında illərlə pilotluq edən **İbrahim Bilir**, yaşadığı bir hadisə nəticəsində UNO-lara inandığını deyib. THY-də illərlə çalışandan sonra son uçuşunu edərək, təqaüdçü olan kapitan pilot İbrahim Bilir 5 il əvvəl Osaka-İstanbul uçuşu zamanı yaşadıqlarından sonra yadplanetlilərin varlığına inandığını deyib: "2010-cu ildə Osakadan qayıdanda eyni xəttdə davam edən, biz də daxil olmaqla 4 təyyarənin heyəti onları gördü. Gəldi üstümüzə çıxdı. Sağ çaprazda üstümüzdə davam etdi. Qüvvətli bir işıq gördük, gümüş rəngində və baxa bilmirsiniz. UNO-nun şəklini görmədik. Çox yaxınımıza gəldi. Mən UNO-ya inanmırdım, amma o səfər zamanı inandım. 5 ildir ki, inanıram".

**O, həmin gün yaşadıqlarını daha sonra belə danışıb:** "3 pilot uçurduq. Qalxışdan 6 saat sonra 38 min feetdə (11 min metr) 4 təyyarə eyni istiqamətdə uçurduq. Qarşımda yenə THY-nin Şanxaydan gələn təyyarəsi, arxamda Lufthansa təyyarəsi vardı. Yaxınlaşan qüvvətli bir işıq gördük. İnanılmaz bir güc, qüvvət vardı onda. Dəyişik bir şey, gözünüzü yandırır. Bizim təyyarədəki hər 3 pilot da gördü. O da gəlib üstümüzə çıxdı. Sağ çarpazda üstümüzdə davam etdi. Bunlar 35-45 saniyə arasında gerçəkləşdi".

**İbrahim Bilir, "Göz yanılması ola bilərmi" sualına cavabda isə aşağıdakıları deyib**: "Dolayısı ilə 4 heyət eyni anda gördü. İşin qəribə tərəfi də odur ki, hər kəs bu işığın məhz onun üstünə gəldiyini zənn edir. Bir nəfər olsam, deyərəm ki, halünasiya görürəm. Amma 4 təyyarənin heyəti də bunu gördü. Psixiatrlar isə iki nəfərin eyni anda və eyni halünasiyanı görməsinin mümkünsüz olduğunu deyir.

THY kapitan pilotlarından Səlahəddin Sivri 1989-cu ilin noyabr ayında Zürix-Antalya səfərini gerçəkləşdirəndə "uçan dairə" gördüyündən bəhs etmişdi: "38 min feetdəydik. Yuqoslaviya hava sahəsində sol üstümdə, 2 min metr uzaqlıqda bir cisim gördük. Öncə təyyarə zənn etdik. Ancaq işıq dalğası diqqəti çəkəcək şəkildə kəskinləşincə, nə olması ilə maraqlandıq. İşıq dalğası 10 dəqiqə sonra qarşımıza keçdi. Birdən-birə 3 əsas rəngə büründü. Normal təyyarədən bir neçə dəfə böyük bir şəkildə qarşımızda uçmağa başladı. İstanbul mərkəzlə əlaqə yaratdığımız zaman onlar belə bir cisim görmədiklərini dedilər. Cisim rəngarəng işıqlarını saçaraq 44 min feetə yüksəldi və ağ işıq topu halına çevrildi. Sonra kəskin bir ağ işıq topu halında yüksələrək itdi".

### Dünyada daha öncə yaşanan olaylar

**-14 dekabr 1947, Arizona**: J.L. Clark təxminən 3 min metr yüksəklikdə, saatda 600 kilometr sürətlə uçarkın qırmızı rəngdə 3 metrlik müəyyənləşdirilməyən cisim görməsi barədə arayış verdi. Bu hadisə layihədə yer alan ilk arayış oldu.

**-15 noyabr 1952, Fusuoka:** Yaponiyada P-61 tipli təyyarədə uçan iki pilot bir anda radarda müəyyən edilməyən 6 cismin uçduğunu gördülər. Bu əşyalardan sadəcə bir dənəsinin radarda görüldüyü qeyd edildi.

**- 4 mart 1960, Lova**: lovada uçan bir pilot elips şəklində 3 cismin sürətlə yüksəldiyini gördü. Pilot yanındakı fotoaparat ilə cisimlərin şəkillərini çəkdi. Araşdırmadan sonra sözügedən cisimlərə fotolarda rast gəlmək mümkün olmadı.

**-29 yanvar 1969, Yaponiya:** T-33 təlim təyyarəsi ilə uçan iki amerikan pilotu ağ bir əşya gördülər. Elips formasındakı bu əçyalar təyyarəni 10 dəqiqə boyunca təqib etdi.

### Nazir də uno görübsə...

Kanadanın sabiq müdafiə naziri 2017-ci ildə dünyada səs-küy yaradacaq bir açıqlama vermişdi. Paul Hellyer adlı eks nazir vaxtilə Kanadaya 4 yadplanetlinin gəldiyini, amma onların hamısını öldürdüklərini deyib. Onun sözlərinə görə, bunu ört-basdır etmək üçün Kanada trilyonlarla dollar vəsait xərcləyib.

1963-1967-ci illərdə müdafiə naziri olan Hellyer hadisənin 1960-cı ildə baş verdiyini bildirib: "İllər əvvəl Yer planetinə gəldilər. Dünyanın gedişatını bizə dedilər və yardım təklif etdilər. Buna baxmayaraq, biz onları təhdid kimi gördük. Əvvəlcə atəş açdıq, daha sonra dindirmək fikrinə düşdük. Onlar Andromeda və Saturn planetlərindən gəlmişdilər".

### Yadplanetli gördüyünü iddia edən şəxslərlə bağlı versiyalar

Adəti üzrə bu cür açıqlama verən şəxslərlə bağlı cəmiyyətdə heç zaman birmənalı fikir olmur. Onların ya psixi pozğunluğu olduğu iddia edilir, ya da diqqət çəkmək üçün sərsəmlədikləri. Amma elm dünyasına məlum olan bəzi həqiqətlər var. Yəni bu günə qədər yadplanetlilərlə bağlı çoxlu sayda məlumatlar həm yerli, həm xarici mediada yer alıb.

O məlumatlardan biri də Sovet dövrü mətbuatında yer almışdı. Həmin məlumata görə, yadplanetlilərin boyu 130-150 sm-ə çatır. Boyunları üzərindəki başları olduqca iri idi və diqqətləri uzaqdan özünə cəlb edir. Yerə düşən diskin içərisindəki varlıqların göz bəbəyi yox idi, amma bu, onların ümumiyyətlə gözlərinin olmadığı demək deyil. Əksinə gözləri xeyli böyük idi. Bədənlərinin digər orqanları da fərqli görünürdü. Məsələn, əlləri dizə qədər uzanırdı, üstəlik barmaqlarının adi insan barmağından daha çox caynağa oxşadığı bildirilirdi. Elə bu caynağı xatırladan barmaqları ilə yadplanetlilərdən biri onu müayinə etmək istəyən həkimin üz-gözünü və sinəsini cırmaqlamışdı. Hadisə ilə bağlı yayılan məlumatda o da bildirilirdi ki, onları bir müddət yeraltı bazada saxladıqdan sonra kosmik gəminin qırıntıları ilə birlikdə Amerikaya aparıblar.

O zaman dərc olunan "Sovetskaya kultura" qəzeti bu barədə yazırdı ki, yadplanetlilər gümüşü kombinzon və tunc rəngli uzunboğaz çəkmə geyinibmiş. Qəzet hətta onlardan birinin digərləri kimi iki yox, üç gözünün olduğunu bildirirdi. Mətbuatın hadisə ilə bağlı məlumatında o da qeyd olunurdu ki, UNO-larda səfər edən qeyri-adi məxluqlar parkda bir qədər gəzib ətrafı seyr edib.

**Əlbəttə, bütün bunlar nə qədər inanılmaz olsa da, uzun müddət müzakirələrin predmetinə çevrildi.**

❑ **Sevinc TELMANQIZI,**
**Musavat.com**



# Berlin süni intellekt yaradılmasına 3 milyard avro sərmayə qoyur

**Almaniya hökuməti 2025-ci ilə qədər süni intellektin inkişafı ilə bağlı elmi araşdırmalara və texnologiyalara 3 milyard avro əlavə sərmayə qoymaq niyyətindədir.**

AZƏRTAC xəbər verir ki, AFR hökumətinin Potsdamda keçirilmiş, rəqəmsal texnologiyalara həsr edilmiş ikigünlük iclasında çıxış edən iqtisadiyyat naziri Piter Altmayer deyib: "Süni intellektə gəlincə, Almaniya elmi və praktik sferalarda aparıcı ölkələrdən biri olmalıdır". Onun sözlərinə görə, AFR hökuməti bunu əsas götürür ki, bu tipli araşdırmalara və texnologiyalara şəxsi investorlar da eyni məbləğdə vəsait xərcləyəcəklər. Beləliklə, 2025-ci ilə qədər süni intellektə investisiyaların ümumi həcmi 6 milyard avro olacaq.

**Altmayer deyib**: "Biz çalışırıq ki, Almaniyada ixracat yönümlü orta müəssisələr və şirkətlər rəqəmsal texnologiyaları daha çox tətbiq etsinlər, çünki bu texnologiyalar sayəsində ÜDM-i daha 1,3 faiz artırmaq mümkündür".

**Onun sözlərinə görə, bu artım buxar maşını ixtira edilən vaxtdan bütün böyük innovasiyaların məcmu səmərəsindən çoxdur.**

# YENİ MÜSAVAT

## Son səhifə

N 244 (7133) 16 noyabr 2018




# Sevgilisini qorxutmaq üçün özünü qatarın altına atdı

**Çinin Nankin şəhərində bir qadın sevgilisini qorxutmaq üçün özünü hərəkətdə olan qatarın qabağına atıb. Müşahidə kamerasının çəkdiyi görüntülər daha sonra yayımlanıb. İnsident cütlük qatarın stansiyaya gəlişini gözləyən vaxt baş verib. Sevgilisi ilə mübahisəyə girən qadın qəflətən qaçmağa başlayıb və relslərin üzərinə hoppanıb. Sevgilisi də onun arxasınca tullanıb. Dəmiryolunun işçiləri isə maşinistə baş verən gözlənilməz hadisə barədə xəbərdarlıq ediblər.**

Qadını xilas etmək mümkün olsa da, qatarın hərəkəti dayandırılıb. "Mən sadəcə zarafat etmək istədim. Mən ora hoppananda kimsə məni ordan çıxarmağa çalışdı.Qatar mənim düz ayaqlarımın yanından keçəndə isə mən dəhşətli dərəcədə qorxdum". Qadın bu yersiz zarafatına görə 200 yuan məbləğində cərimə ödəyib.

Oktyabrda isə xəbər verilmişdi ki, Çində balaca bir uşaq anası telefonda baş verənlərə aludə olan zaman qatar relslərinin üstünə yıxılıb. Uşaq böyük qorxu və başındakı şişlə hadisədən qurtulub.

# Kartof da sərxoş edirmiş

**ABŞ-ın Ohayo ştatında yaşayan Nik Hes öz qəribə xəstəliyi ilə hər kəsi şoka salıb. Orqanizminin karbohidratı qısa müddətdə alkoqola çevirməsi onu sadəcə qonşularının yox, doğmalarının da gözündən salıb. Bu insan kartof yeyən kimi sərxoş olur.**

Nikin dünyada az-az rast gəlinən bu xəstəliyindən xəbər tutmaq xeyli vaxt aparıb. Ailəsi içində kartof olan yemək yedikdən sonra Nikin kefləndiyini görəndə, onun gizli-gizli spirtli içki içdiyini, hətta spirtli içki aludəçisi olduğunu düşünməyə başlayıb. Hətta həyat yoldaşı onun başqaları ilə əyləncə məclislərinə getməsindən şübhələnib.




Üzləşdiyi qəribə durumla bağlı bir neçə xəstəxanaya müraciət edən Nikin əsl problemi sadəcə həkimləri yox, eşidən-bilən hər kəsi heyrətləndirib. Onun mədəsinin kartofu qısa zamanda spirtli içkiyə çevirdiyi, Nikin bu səbəbdən sərxoş olduğu üzə çıxıb.

# Ərinin dərisindən tablo düzəltdi



**Kanadada dünyasını dəyişmiş bir tatuirovka ustasının arvadı mərhum ərinin bədənindən şəkilli bir hissəni çıxarmağı və onu divardan asmağı təklif edib. Saskatun şəhərindən olan Kris Venzel 28 oktyabrda yuxuda ikən dünyasını dəyişib. Onun həyat yoldaşı Şeril deyir ki, tatu-rəssam olaraq çalışan və bədənində xeyli şəkilləri olan ərinin ölümündən sonra da dərisini saxlamaq istəyib. Krisin sinəsində və kürəyində iri bir ilan və quş şəkli yer alıb. Kişinin əlləri və çiyinləri də eyni zamanda tamamən tatuirovka ilə örtülüb.**

Bu duruma görə kişinin dəfn mərasimi bir neçə gün təxirə salınıb. Şeril Save My Ink Forever ("Mənim tatuirovkalarımı həmişəlik saxla") firmasının mütəxəssislərinə müraciət edib. Onlar üç saata yaxın müddətdə onlar dərinin üst qatını qopaqmağa nail olublar. Firma nümayəndələri bildiriblər ki, ilk dəfədir ki, onlara belə sifariş gəlir.

"Siz Pikassonun şəkillərini nə yandırır, nə də basdırırsız. Bəzi tatuirovka ustaları isə öz əsərlərini saxlaya bilmirlər", - bunu kampaniyanın direktoru Kayl Şervud deyib. Təşkilatın sayında qeyd olunub ki, bu qeyri-adi xidmət "istənilən insanın hekayəsini saxlaya və onu gələcək nəsillərə ötürə bilir". Dərinin şəkillərlə dolu bir hissəsini şüşəli bir çərçivəyə yerləşdirirlər. Bu isə müştəriyə 80 min dollara başa gəlir.

**Bu iş üçün lazım olan məbləği toplamaq üçün beş uşaq tərbiyə edən Şerill kampaniya başladıb. Cəmi 15 gün ərzində o, lazım olan məbləği yığmağa nail olub.**




**QOÇ** - Ümumi əhvalınızda gərginlik müşahidə olunsa da, ətrafınızda olan adamlar ovqatınızı az da olsa, yüksəltməyə çalışacaq. Hətta axşama doğru sevindirici xəbər də eşidə bilərsiniz.

**BUĞA** - Ulduzlar şəxsi taleyinizdə müəyyən dönüş yaranacağından xəbər verir. Özünüzü hazır bilsəniz, sözügedən proseslərə daha tez nail ola bilərsiniz. Məsləhətlərə ehtiyacınız var.

**ƏKİZLƏR** - Maddi problemlərinizin olmasına baxmayaraq, ruhdan düşməyin. Əksinə, əzmkarlığınızı daha da artırmaqla bu kimi psixoloji sarsıntıları dəf etməlisiniz. Rəhbər işçilərlə mübahisə etməyin.

**XƏRÇƏNG** - Əsas diqqətinizi ailə-sevgi münasibətlərinin tənzimlənməsinə yönəldin. Əgər bu istiqamətdə uğurlar əldə etsəniz, digər problemləriniz kölgədə qalacaq. Axşam qonaq gedin.

**ŞİR** - Günün ilk yarısı əməkdaşlıq zəminində uğurlu gedişlərə nail olmaq üçün çox səmərəlidir. Aldığınız hər bir təklifi razılıqla qarşılayın. Çünki ulduzlar qarşıdakı yeni işlərə "hə" deyir.

**QIZ** - Təxminən saat 14-ə qədər ümumi ovqatınızda süstlük müşahidə olunsa da, sonrakı müddət normal tərzdə cərəyan edəcək. Çıxardığınız hər bir qərarın nəticəsi barədə düşünün.

**TƏRƏZİ** - Hər mənada uğurlu gün hesab etmək olar. Göy qübbəsi sizi müdafiə etdiyindən nəzərdə tutduğunuz planların əksəriyyətini reallaşdıra biləcəksiniz. Açıq havada çox durmayın.

**ƏQRƏB** - Təzə xəbər eşidəcəyiniz gözlənilir. Hətta peşənizdən asılı olaraq yeni iş təklifləri də ala bilərsiniz. Günün ikinci yarısında xeyirxah adamlarla rastlaşma ehtimalınız var.

**OXATAN** - Yeni əlaqələr yaratmaq üçün böyük şansınız var. Bu, istər işgüzar istiqamətdə, istərsə də səmimilik zəminində real proqnozdur. Odur ki, oturaq işlərə ara verib aktivlik göstərin.

**OĞLAQ** - Müəyyən qədər xərc çəkəcəyiniz gözlənilir. Əgər bu, xeyirxah istiqamətə yönəlibsə, bundan yalnız məmnun olmaq lazımdır. Bugünkü təqvimdə kimlərisə sevindirmək böyük savabdır.

**SUTÖKƏN** - Astroloji göstəricilərə əsaslansaq, bu təqvimi nisbətən gərgin şəraitdə başa vuracaqsınız. Neytral olmağa çalışın. Səhhətinizi qorumağınız da məsləhətdir. Bu gün uzaq səfərə çıxmaq münasib deyil.

**BALIQLAR** - Aktiv fəaliyyətə ara verməlisiniz. Əks təqdirdə cəhdləriniz boşa çıxacaq. Sizin üçün ən düşərli məqam işgüzar görüşlərdə iştirak etmək və ya yaxın ünvana qonaq getməkdir.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

# Ərini qılıncla yaraladı



**Polis Amerikanın Florida ştatında yaşayan qadını həbs edib. Buna səbəb isə onun əri ilə dalaşdığı zaman ona qılıncla hücum etməsidir. İstintaq müəyyən edib ki, cütlük narkotiklər və ailə probolemləri ucbatından dalaşıblar. Mübahisə daha sonra əlbəyaxa davaya çevrilib. Bu zaman isə qadın açarla ərinə hücum edib. Kişi isə evdə saxladığı qılıncla ətrafındakı əşyalara ziyan verməyə başlayıb. Kişi sakitləşəndən sonra qılıncı onun həyat yoldaşı ggötürüb və onunla ərinin qarnına, çiyninə və yancaqlarına zərbə endirib. Zərərçəkmişi xəstəxanaya aparıblar və ona insan sağlamlığına vurduğu kəskin ziyana görə iş istəyiblər. Qeyd olunur ki, evdə əşyayi dəlil olan qılıncla yanaşı, başqa bir qılınc da tapıblar.**

Bu ilin martında isə Yoşkar Olıda yaşayan bir təqaüdçünü də ərinə 82 dəfə samuray qılıncı ilə zərbə endirdiyi üçün həbs etmişdilər.

**Səhifəni hazırladı: SELCAN**


Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 5.100